RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 15 (8608) ŞƏNBƏ, 23 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## "Dostluq" həm də iki ölkə arasında dostluğun möhkəmlənməsinə xidmət edir

## Azərbaycan və Türkmənistan birgə işləyəcəkləri karbohidrogen yatağına bu adı təsadüfən verməyiblər

**Azərbaycan və Türkmənistan tərəflərinin bu yatağı "Dostluq" adlandırmaq barədə ümumi qərarı dərin rəmzi məna daşıyır. Söhbət iki ölkə arasında karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalanmış yataqdan gedir.**

Bu sənədin imzalanması enerji sahəsində əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, Azərbaycanın və Türkmənistanın enerji sahəsində zəngin potensialının birgə üzə çıxarılmasına, Xəzər dənizi regionunda energetikanın davamlı inkişafı üçün ən əlverişli şərait yaradılmasına yönəldilib. Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında yanvarın 21-də videokonfrans formatında keçirilən görüş də məhz sözügedən Anlaşma Memorandumunun imzalanması ilə bağlı idi.

2018-ci ilin avqust ayında beş sahilyanı dövlətin rəhbərləri tərəfindən Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın imzalanması çoxtərəfli birgə işin nəticəsi oldu. Bu Konvensiya enerji sahəsində əməkdaşlığın yeni mərhələsinin başlanğıcını qoydu. 2019-cu ildə Türkmənbaşı şəhərində keçirilmiş birinci Xəzər İqtisadi Forumunun gedişində Azərbaycan və Türkmənistan çox məzmunlu və faydalı danışıqlar apararaq bir sıra mühüm razılaşmalar əldə etdilər.

2020-ci ilin mart ayında Türkmənistan Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı dövlətimizin başçısı ilə birlikdə Xəzər dənizində energetika sahəsində ikitərəfli əməkdaşlıq imkanları ətraflı müzakirə və təhlil olundu. Nəticədə Xəzərdə iri karbohidrogen resursları yataqlarından birinin birgə işlənməsi barədə razılaşma əldə edildi. Beləliklə, hazırkı Anlaşma Memorandumunun imzalanması iki ölkənin energetika sahəsində əməkdaşlığında prinsipcə yeni mərhələdir. Çünki indi möhkəm beynəlxalq hüquqi bazaya əsaslanan birgə iş üçün yeni imkanlar açılır, regiona sistemli və uzunmüddətli əsasda iri xarici investisiyalar axını üçün əlavə ciddi stimullar yaranır. Həm Azərbaycanın, həm də Türkmənistanın milli iqtisadiyyatının dinamik inkişafına, yeni iş yerlərinin yaradılmasına, insanların həyat səviyyəsinin yüksəldilməsinə yeni təkan verilir.

Ümumiyyətlə, son illər ölkələrimiz arasında münasibətlər müsbət dinamika ilə inkişaf edir. Ali səviyyədə qarşılıqlı səfərlərin xronologiyası da bunu təsdiqləyir. Belə ki, son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb. Müqayisə üçün deyək ki, qarşılıqlı münasibətlərin bütün tarixi ərzində imzalanan sənədlərin sayı 100-dən çoxdur. Yəni onların yarısı son 3 ilin payına düşür. Ən önəmlisi də odur ki, bütün bu sənədlərdə nəzərdə tutulanlar, o cümlədən enerji sahəsində əməkdaşlığa dair əldə edilən razılaşmalar müvəffəqiyyətlə yerinə yetirilir.

*Ardı 4-cü səh.*

◆ İlin uğurlu yekunları

## Zəfər salnaməsi

### Azərbaycan tarixinin 44 şərəf günü

**Azərbaycan xalqı üçün geridə qalan 2020-ci ilin ən böyük hadisəsi ərazi bütövlüyünün bərpası oldu. Sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək işğal siyasətinə son qoydu. Bu savaş Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri əsasında düşmənin kapitulyasiyası ilə başa çatdı.**

### Döyüşlərin 44-cü günü Ermənistan kapitulyasiya etməyə məcbur oldu

Şuşanın azad edilməsi Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Dünya hərb tarixi də göstərir ki, belə itkilərə məruz qalmış tərəf məğlub hesab edilir, təslim olur və hərbi əməliyyatlar dayandırılır.

Prezident İlham Əliyev noyabrın 9-da daha 72 kəndin, 1 qəsəbənin və 8 strateji yüksəkliyin azad olunduğunu bəyan etdi. Bundan sonra Azərbaycanın qarşısında məğlub olduğunu anlayan işğalçı Ermənistanın rəhbərliyi Prezident İlham Əliyevin şərtlərinə uyğun kapitulyasiya aktını imzalamağa məcbur edildi. Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla işğalçı Ermənistan kapitulyasiyaya, təslim olmağa məcbur edildi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı Bəyanat işğalçı ölkənin məğlubiyyətinin təsdiqi oldu.

*(Əvvəli qəzetin 8,9,10,12, 17 yanvar nömrələrində)*

### Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı

Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.

*Ardı 4-cü səh.*

## Vətəndaş dövlətinin arxasında olduğu kimi, dövlət də vətəndaşının yanındadır

**Azərbaycan dövlətinin apardığı siyasətin əsas məqsədi ölkənin iqtisadi cəhətdən daha da inkişaf etməsidir. Çünki məhz iqtisadi yüksəliş dövlətə sosial məsələləri uğurla həll etməyə imkan verir.**

Təsadüfi deyil ki, hər il ölkənin büdcəsi təsdiq olunarkən əhalinin sosial rifahının artırılması diqqət mərkəzində olur. Büdcədən sosial sahəyə ayrılan vəsaitin həcmi ildən-ilə artır. Hətta pandemiya şəraiti səbəbindən dövlətin gəlirləri müəyyən qədər azalsa belə, cari ildə də sosial sahəyə ayrılan vəsaitin həcmi çoxalıb.

Həyata keçirilən sosial siyasət həm də geniş əhatəli olur. Bu zaman ölkənin sosial dəstəyə ehtiyacı olanların hamısının mənafeyi nəzərə alınır. Azərbaycanda tələbələrdən tutmuş İkinci Dünya müharibəsinin veteranlarına kimi hamıya sosial qayğı göstərilir. Həyata keçirilən bu siyasət beynəlxalq qurumlar tərəfindən də dəstəklənir. Həmin təşkilatlar ölkəmizdə bir sıra sosial layihələrin icrasını yüksək dəyərləndirir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır. Bu, sosial sahədə görülən işlərdə praktiki olaraq təsdiqini tapır.

Məlumdur ki, ötən ilin əvvəlindən dövlət başçısının müvafiq sərəncamı ilə bütün pensiyalar ölkə üzrə 16,6 faiz indeksasiya olunaraq artırılmışdır. Ümumilikdə həmin və digər artımlar 2 milyondan çox vətəndaşımızı əhatə etmişdir. Həyata keçirilən uğurlu sosial islahatlar nəticəsində ölkəmizdə orta aylıq pensiyanın məbləği 13 faiz artaraq 300, yaşa görə pensiyanın məbləği isə 330 manata çatmışdır. Bunun sayəsində həm minimum, həm də orta pensiyanın alıcılıq qabiliyyəti indeksinə görə, ölkəmiz MDB məkanında liderliyini qoruyub saxlamışdır.

Ötən il həmçinin 77 min ailənin 322 min üzvünə ünvanlı sosial yardım verilmişdir. Bu rəqəm 2019-cu illə müqayisədə 19 min nəfər çoxdur. Üstəlik, orta aylıq ödənişlərin məbləği 15 faiz artaraq 240 manata çatmışdır.

Azərbaycanda sosial siyasət həm də şəffafdır. 2020-ci ildə həm müavinət və təqaüd, həm də pensiya üzrə 95 min təyinat elektron portal üzərindən, məmurla vətəndaş arasında hər hansı bir təmas olmadan həyata keçirilmişdir. Bununla yanaşı, əsassız pensiya, saxta əlillik işlərinin, eləcə də digər ödənişlərin araşdırılması nəticəsində il ərzində 125 milyon manat vəsaitə qənaət edilmişdir. Eyni zamanda yığımların artması nəticəsində il ərzində 160 milyon manata qənaət olunmuşdur. Görülən bu tədbirlər sayəsində son iki ildə əhaliyə ödənişlərin 1 milyard manat artmasına baxmayaraq, 570 milyon manat vəsait dövlət büdcəsinə qaytarılmışdır.

*Ardı 4-cü səh.*

## Qeyri-neft sənayesinin şaxələndirilməsi iqtisadi reallığın tələbidir

### Sumqayıtda daha bir müəssisə açıldı, ikisinin isə təməli qoyuldu

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında daha iki müəssisənin təməlini qoymuş və bir müəssisənin açılışını etmişdir.**

Burada "Azərsulfat" MMC-nin sulfat turşusu istehsalı və "Glassica" QSC-nin şüşə tara məhsullarının istehsalı zavodları tikiləcək. "Azerfloat" QSC-nin termoformasiya metodu ilə vərəqə şüşə istehsalı müəssisəsi isə dövlət başçısının xeyir-duası ilə fəaliyyətə başlamışdır.

"Sulfat turşusu istehsalı" layihəsi çərçivəsində tikiləcək zavodun investisiya dəyəri 6 milyon ABŞ dollarıdır. Zavodda ildə 20 min ton məhsul istehsalı planlaşdırılır. Müəssisə cari ilin sonunda fəaliyyətə başlayacaq və burada 30-dan çox iş yeri yaradılacaq. Qeyd edək ki, təkcə son 3 ildə ölkəmiz hər il 5-10 min ton sulfat turşusu idxal edir. Bu zavodun fəaliyyətə başlaması ilə idxal yerli məhsulla əvəz olunacaq. Məhsulların yaxın gələcəkdə Gürcüstana və Rusiyaya ixracı da nəzərdə tutulur.

Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən olan "Glassica" QSC isə burada şüşə tara məhsullarının (butulka) istehsalı zavodunu tikir. Müəssisənin məhsulları əsasən qida sektorunda qablaşdırmada istifadə olunacaq. Belə ki, ölkəmizdə daxili bazarın rəngli butulkaya tələbatı təqribən 45-50 milyon ədəd arasında dəyişir. İnşa edilən zavodda isə 60-90 milyon ədəd müxtəlif çeşidli rəngli şüşə tara məhsullarının istehsalı nəzərdə tutulur.

*Ardı 4-cü səh.*



## Laqeydlik və məsuliyyətsizlik yoluxmanı yenidən artıra bilər

**Pandemiya bütün dünyanı təhdid etməkdədir. Ümumdünya Səhiyyə Təşkilatının gündəlik hesabatında deyilir ki, dünyada koronavirusa yoluxanların sayı son sutka ərzində 610 mindən çox artıb və bununla da yoluxanların ümumi sayı 95 milyonu ötüb.**

Hazırda dünyanın bir çox ölkəsində koronavirusdan qorunmağın ən effektiv yolu olan vaksinasiya işi aparılır. Peyvəndin ən çox tətbiq olunduğu ölkələr siyahısına Almaniya, İsrail, İtaliya, İspaniya, Böyük Britaniya, ABŞ, Çin və Rusiya başçılıq edir. Türkiyə də yeni növ koronavirusa qarşı mübarizə məqsədilə Çin istehsallı "Sinovac" vaksininin tətbiqinə start verib.

ÜST-ün Baş direktoru Tedros Gebreyesus dünyada aparılan peyvəndləmə prosesi ilə bağlı ötən çərşənbə axşamı etdiyi çıxışda bildirmişdi ki, koronavirusa qarşı vaksinlər qeyri-bərabər bölüşdürülür. Zəngin ölkələrin gənc və sağlam sakinləri yoxsul ölkələrdə tibb işçiləri və yaşlı insanlardan əvvəl vaksinasiya olunur. O qeyd edib ki, hazırda 39 milyondan çox peyvənd dozası 49 yüksək gəlirli ölkəyə çatdırılıb.

T.Gebreyesus bütün ölkələrə yalnız ciddi beynəlxalq təhlükəsizlik, səmərəlilik və keyfiyyət standartlarına cavab verən vaksinlərdən istifadə etməyi tövsiyə edib.

*Ardı 7-ci səh.*

## Ermənistan hakimiyyəti müxalifəti erkən seçkilərlə hədələyir

**Müharibədəki məğlubiyyətin Ermənistanda yaratdığı siyasi qarşıdurma davam etməkdədir. Müxalifət hakimiyyəti məğlubiyyətin əsas səbəbkarı qismində qələmə versə də, Paşinyan iqtidarı əks arqumentlə çıxış edərək onları fakt qarşısında qoymağa çalışır.**

Diqqətçəkən başqa bir məqam isə odur ki, Paşinyan iqtidarı növbədənkənar parlament seçkiləri təyin etməklə müxalifətin cəmiyyətdə sosial və ictimai dayaqlarının olmadığını sübut etmək istəyir. Bunun üçün baş nazir erkən parlament seçkilərinə gedilməsində israrlı olsa da, müxalifət bu seçkilərdə iştirak etməyəcəyini bildirir.

### Baş nazirə qarşı çıxanlar növbədənkənar seçkilərdən narahatdırlar

Belə vəziyyətdə Paşinyanın əlinə müxalifətə qarşı yeni arqumentlər keçib. O, iddia edir ki, müxalifət erkən parlament seçkilərindən narahatdır və əsas səbəb də odur ki, cəmiyyətdə dayağı yoxdur. Digər tərəfdən baş nazir müxalifətin seçkilərdə iştirak etməyəcəyini bəhanə gətirərək artıq buna zərurət olmadığını diqqətə çatdırır və mövqelərinin güclənməsinə cəhd edir.

"4rd.am" saytının yazdığına görə, Ermənistanın vitse-baş naziri Tiqran Avinyan bəyan edib ki, ölkə rəhbərliyi parlamentin müxalifət fraksiyası ilə növbədənkənar seçkilərin keçirilməsi barədə memorandum imzalamağa hazırdır.

*Ardı 8-ci səh.*

# Milli Məclisdə “Ali təhsil haqqında” qanun layihəsinin hazırlanması məqsədilə onlayn videokonfrans



**Yanvarın 22-də “Ali təhsil haqqında” Azərbaycan Respublikasının qanun layihəsinin hazırlanması məqsədilə yaradılmış işçi qrupunun videokonfrans formatında görüşü keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, parlamentin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə keçirilən konfransda Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri, müvafiq dövlət qurumlarının nümayəndələri, ali təhsil ocaqlarının rəhbərləri və ekspertlər iştirak ediblər.

Videokonfransı giriş sözü ilə açan sədr Sahibə Qafarova konfrans iştirakçılarını salamlayıb, 2020-ci ildə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasətin nəticələri və gələcək planlar barədə danışıb. Sədr xatırladıb ki, yanvarın 6-da dövlət başçısının sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilmiş müşavirədə Prezident ötən ilin yekunlarını geniş və konseptual şəkildə təhlil edərək qarşıda duran vəzifələri müəyyənləşdirib.

Milli Məclisin sədri deyib ki, ötən ilin ən ümdə hadisəsi Vətən müharibəsində əldə olunmuş tarixi zəfər nəticəsində torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüzün bərpasıdır. Bu münasibətlə konfrans iştirakçılarına təbriklərini çatdıran Sahibə Qafarova qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli sərkərdəlik məharəti, yüksək liderlik qabiliyyəti və şanlı Ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanın əldə etdiyi bu Qələbə tariximizdə əbədi olaraq qalacaq.

Sədrin sözlərinə görə, geridə qalan 2020-ci ildə koronavirus pandemiyasının bütün dünya dövlətləri üçün yaratdığı problemlər fonunda Azərbaycan bir çox ölkələrlə müqayisədə bu sınaqdan daha az itkilərlə çıxıb. Bildirilib ki, ötən il ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatın bir çox sahələrində inkişaf meyilləri qeydə alınıb, siyasi islahatların, o cümlədən struktur və kadr islahatlarının həyata keçirilməsi ölkənin demokratik inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı olub.

2020-ci ildə keçirilən növbədənkənar parlament seçkiləri nəticəsində Milli Məclisin yeni tərkibinin formalaşdığını xatırladan Sahibə Qafarova diqqətə çatdırıb ki, parlament ölkənin Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və praqmatik daxili və xarici siyasətini Milli Məclis səviyyəsində dəstəkləyərək bu istiqamətdə zəruri işlər görüb. Vətən müharibəsində parlament diplomatiyasının bütün imkanları ölkəmizin haqq işi barədə dünya ictimaiyyətini məlumatlandırmağa, Ermənistanın törətdiyi təxribatların beynəlxalq auditoriyaya çatdırılmasına səfərbər olunub. Qanunverici orqanın fəaliyyətinin səmərəliliyinin daha da artırılması, müasir tələblər çərçivəsində həyata keçirilməsi üçün məqsədyönlü addımlar atılıb.

Videokonfransda parlamentin sədri deyib ki, qlobal pandemiyanın yaratdığı çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, təhsil sahəsində də məqsədyönlü işlər görülüb, istər tədrisin təşkili, istərsə də qəbul imtahanlarının keçirilməsində qarşıya qoyulan məqsədlərə nail olunub. Bu, həm dövlətimiz tərəfindən bu sahəyə yüksək diqqət və qayğının göstərilməsi, həm də təhsil sistemində işlərin peşəkarlıqla təşkil edilməsinin nəticəsidir.

Təhsil sahəsinin hər bir dövlətin, cəmiyyətin inkişafında mühüm rola malik olduğunu qeyd edən Sahibə Qafarova bildirib ki, haqlı olaraq təhsil, bilik inkişafın və tərəqqinin özəyi kimi dəyərləndirilir. Birmənalı şəkildə qeyd edə bilərik ki, Azərbaycanda təhsilin inkişafına yüksək səviyyədə diqqət və qayğı göstərilir. Ölkəmizdə təhsil sahəsində həyata keçirilən məqsədyönlü siyasət və ardıcıl tədbirlər nəticəsində böyük nailiyyətlər əldə olunub. Prezident İlham Əliyev təhsil sahəsinin inkişafını, ölkəmizdə müasir dünyagörüşlü və vətənpərvər gənc nəslin yetişməsini dövlət siyasətinin mühüm prioritetlərindən biri elan edib, bu istiqamətdə ardıcıl addımlar atılıb. Eyni zamanda təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülüb, son 15 ildə minlərlə orta məktəb tikilib və ya əsaslı təmir olunub. Bu da təhsildə infrastruktur məsələlərinin yüksək səviyyədə həllini təmin edib.

Sədr bildirib ki, ölkəmizdə təhsildə inteqrasiyanı sürətləndirmək, peşəkar, savadlı kadrların hazırlanması məqsədilə də müxtəlif proqramlar icra olunub. Görülən işlərin nəticəsində Azərbaycanda müasir dövrün tələblərinə uyğun güclü təhsil sistemi formalaşıb. Sahibə Qafarova xüsusi olaraq vurğulayıb ki, bütün bu işlərin həyata keçirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mühüm işlər görüb, bir çox təşəbbüslər irəli sürüb və reallaşdırıb.

Ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatların qanunvericilik əsaslarının yaradılması və hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində də uğurlu addımlar atılıb. Bu istiqamətdə Milli Məclis tərəfindən bir sıra qanunlar hazırlanıb və qəbul olunub.

Sədr qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə hazırlanmış və 2013-cü ildə təsdiq etdiyi “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təhsil sahəsində islahatların yeni mərhələsi olub. Bu strategiyaya uyğun olaraq müasir beynəlxalq təhsil standartlarına əsaslanaraq, Azərbaycanda təhsilin keyfiyyətini yüksəltmək məqsədilə davamlı islahatlar həyata keçirilməkdədir. O cümlədən ali təhsil sahəsində də sistem xarakterli tədbirlər görülüb, islahatlar aparılıb, ali təhsilin keyfiyyəti xeyli yaxşılaşdırılıb. Bununla belə, zaman sürətlə dəyişir, müasir çağırışlar meydana gəlir. Azərbaycanın sürətli və davamlı inkişafı bütün sahələrdə yeni reallıqlar yaradıb. Təbii ki, bu yeni və müasir reallıqlar, həmçinin mövcud dünya təcrübəsinin təhlili ölkəmizdə ali təhsil sahəsində köklü islahatların həyata keçirilməsini və qanunvericilik bazasının möhkəmləndirilməsini zəruri edir.

Bu baxımdan Prezident İlham Əliyevin təsdiq etdiyi “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” ali təhsilin keyfiyyətcə yeni səviyyəyə keçidini təmin etməyə yönəlmişdir. Belə ki, bu proqramda həm ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları və xarici mütəxəssislərin cəlb olunması yolu ilə təkmilləşdirilməsi, həm də xaricdə doktorantura təhsili vasitəsilə elmi kadrların hazırlanması nəzərdə tutulur. Ali təhsil müəssisələrinin müasir elmi - tədqiqat və innovasiya mərkəzlərinə çevrilməsi prosesi sürətlənməli və onların dünya reytinqində irəliləməsi təmin olunmalıdır. Nəticə etibarilə tədqiqat universitetlərinin yaradılması, əmək bazarının tələbləri əsasında yenilikçi, peşəkar kadrların hazırlanması təmin edilməlidir.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, mövcud qanunvericiliyin təhlili göstərir ki, ali təhsilin Avropa ali təhsil məkanına inteqrasiyanı sürətləndirmək məqsədilə kifayət qədər zəruri dövlət proqramlarının icrasına, “Təhsil haqqında” qanuna dəyişiklik və əlavələrin edilməsinə baxmayaraq, ali təhsilin qanunvericilik bazası yetərincə təmin edilməyib. Ali təhsil haqqında məsələlər “Təhsil haqqında” qanunda əsasən bir maddədə və çox qısa formada əksini tapıb. Bu sahədə məsələlər digər normativ və hüquqi sənədlər əsasında tənzimlənir. Halbuki bu məsələlər qanunla tənzimlənməlidir. Bu, həm də Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyaların tələbidir. Ona görə də ilk dəfədir ki, Azərbaycanda “Ali təhsil haqqında” qanun hazırlanır. Sədr qeyd edib ki, əvvəllər belə bir qanun olmayıb.

Sahibə Qafarova bildirib ki, 2021-ci il bizim üçün, sadəcə, yeni bir təqvim ili deyil. Biz Azərbaycan dövləti və xalqımız üçün yeni bir mərhələyə qədəm qoymuşuq. Bu da onunla bağlıdır ki, Vətən müharibəsində əldə etdiyimiz Zəfər, torpaqlarımızın işğaldan azad olunması ölkəmizin qarşısında yeni perspektivlər yaradıb, yeni vəzifələr müəyyənləşdirib. Bu, quruculuq dövrüdür və bu mərhələdə görüləcək tədbirlər, qarşıda duran vəzifələr sözügedən müşavirədə Prezident İlham Əliyev tərəfindən aydın şəkildə ifadə edildi. Mən inanıram ki, bu vəzifələrin yerinə yetirilməsi Azərbaycanın uğurla, inamla inkişafına kömək edəcək. O, əminliyini ifadə edib ki, ölkəmizin təhsil ictimaiyyəti də yeni quruculuq dövründə öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək və Azərbaycanın davamlı inkişafına töhfələr verəcək.

Sədr çıxışının sonunda bugünkü konfransda həm təhsil sahəsində əldə olunan nailiyyətlər və digər məsələlər, həm də “Ali təhsil haqqında” qanunun hazırlanması və qəbul olunması ətrafında müzakirələr aparılacağına, dəyərli təkliflər səslənəcəyinə inamını ifadə edib.

Sonra çıxış edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri, işçi qrupun rəhbəri Bəxtiyar Əliyev diqqətə çatdırıb ki, bu, işçi qrupunun ilk iclasıdır. Bugünkü iclasın məqsədi təhsil sahəsi üzrə mütəxəssislərin fikirlərini dinləmək, mövcud vəziyyəti təhlil etmək və onların əsasında “Ali təhsil haqqında” qanun layihəsinin hazırlanmasıdır. Bununla bağlı biz beynəlxalq konvensiyaları, ölkəmizin qoşulduğu bir sıra beynəlxalq sənədləri, qanunvericiliyimizi və əmək bazarını təhlil etmişik. Bu gün səslənən fikirlər əsasında qanun layihəsinin ilkin variantı hazırlanacaq. İşçi qrupunun növbəti iclasında qanun layihəsinin ilkin variantı müzakirə ediləcək. Qanun layihəsi hazırlanıb komitəyə təqdim edildikdən sonra onun geniş müzakirələri keçiriləcək. Komitədə müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunacaq.

Videokonfransda çıxış edən təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan təhsilinin qarşısında dayanan mühüm məsələ olan “Ali təhsil haqqında” qanun layihəsinin hazırlanması məqsədilə bu cür geniş müzakirənin keçirilməsi təqdirəlayiqdir. Hazırda ölkəmizdə 51 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Onların 20-si Təhsil Nazirliyinin tabeliyində, 13-ü digər nazirlik və komitələrin nəzdində fəaliyyət göstərir, 11-i özəl, 7-si isə xüsusi təyinatlıdır.

Nazir hazırlanacaq qanun layihəsinin əsas məsələləri barədə məlumat verib. Təhsil naziri təhsil sisteminin iştirakçıları, ali təhsilin əlçatanlığı, təhsilin keyfiyyəti, səmərəliliyi, idarəetmə prosesi, ali təhsilin mövcud maliyyələşmə mexanizmləri, təhsilin beynəlxalq standart üzrə təsnifatı, təqaüdlər, tələbə kreditləri, tədris və təlim prosesi, təhsilin iqtisadiyyatı, təhsilin keyfiyyətinə nəzarət və təhsilin formaları barədə fikirlərini bölüşüb, qanun layihəsində nəzərə alınmalı olan məsələləri diqqətə çatdırıb.

Sonra çıxış edən Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ali təhsil müəssisələrinə qəbul, tələbə qəbulu prosesinin ümumi qaydaları haqqında təkliflərini səsləndirib. DİM sədri beynəlxalq imtahanlar haqqında, ali təhsilin beynəlmiləlləşməsi haqqında, ali təhsil müəssisələrində təhsilin keyfiyyətinin qiymətləndirilməsi, qəbul imtahanlarında keçid ballarının aşağı salınması, qəbul planının artırılması və digər məsələlər barədə fikirlərini bildirib. Məleykə Abbaszadə hazırlanacaq qanun layihəsində bir sıra anlayışların açıqlanmasının vacibliyindən danışıb, tələbə qəbulu sahəsində statistik məlumatları diqqətə çatdırıb.

Onlayn videokonfransda çıxış edən Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri - İsa Həbibbəyli, Musa Qasımlı, Ceyhun Məmmədov, Etibar Əliyev, Anar İsgəndərov, Kamilə Əliyeva, Şahin Seyidzadə, Aqiyə Naxçıvanlı, Pərvin Kərimzadə və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov hazırlanacaq qanun layihəsi barədə qeyd və təkliflərini səsləndiriblər. Çıxış edənlər distant təhsil, elmi kadrların hazırlanması, təhsildə milli-mənəvi dəyərlər, bu sahədə qarşıda dayanan vəzifələr barədə fikirlərini bildiriblər.

Videokonfransa yekun vuran Elm və təhsil komitəsinin sədri və işçi qrupunun rəhbəri Bəxtiyar Əliyev qeyd edib ki, iclasda cəmiyyəti narahat edən məsələlər ətrafında çox maraqlı və səmərəli müzakirələr aparılıb. Bu gün səslənən təkliflər əsasında “Ali təhsil haqqında” qanun layihəsinin ilkin variantı hazırlanacaq və işçi qrupunun növbəti iclasında geniş müzakirə olunacaqdır.

Bununla da “Ali təhsil haqqında” Azərbaycan Respublikası qanunu layihəsinin hazırlanması məqsədilə yaradılmış işçi qrupunun onlayn videokonfransı başa çatıb.

# Milli Məclisin Gənclər və idman, Aqrar siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin iclasları keçirilib

**Yanvarın 22-də Milli Məclisin Gənclər və idman komitəsi yaz sessiyasında ilk iclasını keçirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, onlayn iclasda Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev əvvəlcə Vətən müharibəsində qazanılmış Qələbə münasibətilə deputatları bir daha təbrik edib. Vurğulayıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tarix yazıb, uzun illər işğal altında olan ərazilərimiz azad edilib. Uzun illər aparılan uğurlu siyasətin məntiqi nəticəsi olan bu Qələbənin memarı Azərbaycan Prezidenti İlham Əliyevdir. Tarix bir daha göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır, onun güclü iradəsi var. Xalqımız mərhəmətli olduğu qədər, düşmənə zərbə vuracaq dəmir yumruğa da malikdir.

Vitse-spiker qeyd edib ki, 44 günlük Vətən müharibəsində Milli Məclis çox böyük işlər görüb, bütün deputatlar birlik nümayiş etdirərək Ali Baş Komandanın ətrafında yumruq kimi birləşib və bütün sahələrdə - mətbuatda, telekanallarda Azərbaycanın haqq sözünü dünya birliyinə və ictimaiyyətə çatdırıb.

Sonra Adil Əliyev yeni sessiyanın başlanması münasibətilə həmkarlarını təbrik edib, qanunvericilik fəaliyyətində parlamentə uğurlar arzulayıb.

Gündəlikdəki birinci məsələ - 2020-ci ilin payız sessiyası ərzində komitədə görülmüş işlər barədə hesabat rəngli şəkillərlə müşayiət olunan jurnal şəklində tərtib edilərək deputatlara təqdim olunmuşdu. Vitse-spiker bildirib ki, Milli Məclis bütövlükdə 2020-ci ili uğurla başa vurub. Hesabat dövründə Gənclər və idman komitəsində 7 iclas keçirilib, 9 məsələyə baxılıb, müzakirə olunan qanun layihələri plenar iclasa tövsiyə edilib.

Payız sessiyasında Gənclər və idman komitəsinə vətəndaşlardan, idarə və təşkilatlardan 201 məktub, müraciət və sənəd daxil olub, aidiyyəti üzrə baxılması üçün komitə tərəfindən müxtəlif qurumlara 92 məktub göndərilib.

Sessiya müddətində 1545 nəfərin elektron müraciəti qeydə alınıb ki, bunlardan 1248 müraciət “Facebook” və digər sosial şəbəkələr, 174 müraciət isə “WhatsApp” mobil tətbiqi vasitəsilə daxil olub. 1512 məsələ öz həllini tapıb. Həmçinin komitəyə daxil olan 216 şifahi müraciətin 162-si həll olunub.

Bildirilib ki, komitə üzvləri ölkənin ictimai-siyasi həyatında aktiv iştirak ediblər, seçicilərin qayğılarına həssaslıq göstəriblər. Ötən ilin ikinci yarısında vitse-spiker, komitə sədri Adil Əliyev tərəfindən qəbul günlərində və fərdi qaydada olmaqla 635 vətəndaş qəbul edilib ki, onlardan 472 nəfəri Nərimanov rayonundakı seçicilər, 130-u digər rayon və şəhərlərdən gələnlər olub. Qəbullarda səslənən müraciətlər üzrə müvafiq tədbirlər görülüb. Vətəndaş müraciətləri əsasən iş və məşğulluq, sağlamlıq, məişət problemləri, abadlıq işləri, kredit, sosial təqaüdlər və sair ilə bağlı olub.

İclasda qeyd olunub ki, hesabat dövründə komitədə çoxsaylı tədbirlər keçirilib. Xüsusilə Ermənistanın Azərbaycana növbəti təxribatçı hücumu nəticəsində başlanan əks-hücum əməliyyatı zamanı, Vətən müharibəsi günlərində Azərbaycanda fəaliyyət göstərən 51 siyasi partiyanın Ermənistanın təcavüzü ilə bağlı vahid bəyanatı Parlamentlərarası İttifaqa təqdim edilib, işğal olunmuş ərazilərdəki məscidlərimizdə ermənilərin yaratdığı təhqiramiz vəziyyəti əks etdirən foto və videomateriallar göndərilib. İran, Moldova, Qazaxıstan və Türkiyə nümayəndə heyətləri ilə görüşlər, həmçinin ölkə daxilində müxtəlif qurumlarla görüşlər keçirilib. 44 günlük müharibə dövründə dünyanın 6 ölkəsində 40-dan çox media qurumunda türk, ingilis, rus, alman və ərəb dillərində məqalələr çap etdirilərək gerçək vəziyyət şərh olunub, Türkiyə KİV-inə müsahibələr verilib, Azərbaycan mətbuatında fəal çıxışlar edilib.

Komitə üzvləri şəhid və qazi ailələrinə xüsusi diqqət və qayğı ilə yanaşıblar. Bu qəbildən olan ailələrlə görüşlər keçirilib, onlara yardımlar olunub. Qazilərlə, ordudakı hərbçilərlə görüşlər onlara böyük mənəvi dəstək verib.

İclasda komitənin 2021-ci ilin yaz sessiyası üçün iş planına da baxılıb. Qeyd edilib ki, yuxarı instansiyalardan Milli Məclisə daxil olacaq qanun layihələri, bir sıra qanunlarda dəyişiklik edilməsi ilə bağlı məsələlərlə yanaşı komitədə “Reproduktiv sağlamlığın qorunması haqqında” qanun layihəsinin, eləcə də “Ali təhsil haqqında” qanun layihəsində gənclərlə bağlı müddəaların müzakirəsi nəzərdə tutulub. İş planında, həmçinin ölkə əhəmiyyətli ictimai-siyasi hadisələrlə əlaqədar müxtəlif səpkili tədbirlərin təşkilinə də geniş yer ayrılıb.

Müzakirələrdə iştirak edənlər vətənpərvər Azərbaycan gənclərinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə böyük hünər göstərərək döyüş meydanında Qələbə çaldıqlarını bildiriblər.

Gündəlikdəki məsələlərə dair rəy və təkliflərini bildirən komitə sədrinin müavini Şahin İsmayılov, deputatlar Müşfiq Cəfərov, Jalə Əhmədova, Könül Nurullayeva, Ülvi Quliyev, Şahin Seyidzadə,



Cavid Osmanov, Sevinc Hüseynova, Mahir Abbaszadə komitənin payız sessiyasındakı fəaliyyətini yüksək qiymətləndiriblər. Hesabatın dolğun və təqdirəlayiq şəkildə tərtib olunduğu qeyd edilib. Yaz sessiyasına dair iş planının çox əhatəli olduğu və günün aktual məsələlərini əhatə etdiyi vurğulanıb. Yeni çağırışlarla bağlı qanunvericiliyin zənginləşdirilməsi, bir sıra tədbirlərin təşkili, əsasən də gənclərlə bağlı müxtəlif təkliflər səslənib.

Geniş müzakirələrin yekununda hesabat məqbul sayılıb. Təkliflər nəzərə alınmaq şərtilə yaz sessiyasının iş planı təsdiqlənib.

İclasda deputatlar Elnur Allahverdiyev, Etibar Əliyev, Vüqar İskəndərov, Eldəniz Səlimov, Milli Məclis Aparatının iqtisadi və sosial qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov da iştirak ediblər.

❖ ❖ ❖

Yanvarın 22-də Milli Məclisin Aqrar siyasət komitəsinin 2021-ci ilin yaz sessiyasında onlayn formatda ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan komitə sədri Tahir Rzayev qarşıdan gələn yaz sessiyasında həmkarlarına uğurlar arzulayıb. O, Azərbaycan torpaqlarının 30 ildən sonra düşmən tapdağından azad olunmasına diqqət çəkərək Qələbə münasibətilə həmkarlarına təbriklərini çatdırıb. Komitə sədri qeyd edib ki, ötən 2020-ci il xalqımızın hərb salnaməsinə qızıl hərflərlə həkk edilib, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi, qalib Ordumuzun gücü ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edilib. İclas iştirakçıları Vətənin müdafiəsi uğrunda canından keçən şəhidlərə Allahdan rəhmət, qazilərimizə şəfa diləyiblər.

Tahir Rzayev 2020-ci ilin payız sessiyası ərzində komitədə görülən işlərin hesabatını təqdim edib. Qeyd olunub ki, hesabat dövründə komitənin 7 iclası keçirilib və 8 məsələ müzakirə edilib. Meşə Məcəlləsində, Torpaq Məcəlləsində, “Torpaq islahatı haqqında”, “Torpaq bazarı haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında”, “Dövlət rüsumu haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” qanunlarda əhəmiyyətli dəyişikliklər edilib. Qanunvericiliyin təkmilləşdirilməsinə xidmət edən bu sənədlər Milli Məclisin plenar iclaslarında müzakirə olunaraq qəbul edilib.

Komitə sədri vurğulayıb ki, hesabat dövründə vətəndaşlardan komitəyə 82 ərizə, məktub və müraciət daxil olub, qeyd edilən problemlərlə bağlı müəyyən müraciətlər aidiyyəti qurumlara ünvanlanıb, bəziləri isə komitə üzvləri tərəfindən müzakirə edilərək öz həllini tapıb.

Hesabat dövründə komitə üzvlərinin ölkə həyatında baş verən ictimai-siyasi proseslərdə fəal iştirak etdikləri, vaxtaşırı ordumuzun əsgər və zabitlərinə, şəhid və qazi ailələrinə dəstək verdikləri, koronavirus pandemiyası ilə mübarizə sahəsində xeyriyyə tədbirlərinə qatıldıqları, ölkəmizin iqtisadi və aqrar sahədə əldə etdiyi uğurlar barədə seçicilərini məlumatlandırdıqları diqqətə çatdırılıb.

Hesabat məqbul hesab edilib.

Sonra iclasda komitənin 2021-ci il yaz sessiyasının qanunverici işləri planı müzakirə edilib. Tahir Rzayev yaz sessiyasında baxılması nəzərdə tutulan məsələlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, qarşıdakı sessiyada komitədə “Qida təhlükəsizliyi haqqında” qanun layihəsi və digər vacib qanunlar üzərində iş davam etdiriləcək.

Komitə üzvləri Eldar İbrahimov, Cavanşir Paşazadə, Novruzəli Aslanov, Azər Badamov çıxış edərək işğaldan azad olunmuş torpaqlarımızda kənd təsərrüfatının, heyvandarlığın inkişaf etdirilməsi, yeni fermer təsərrüfatlarının yaradılması ilə bağlı təkliflərini səsləndiriblər.

Komitənin iş planı yekdilliklə təsdiqlənib.

Onlayn iclasda komitənin digər üzvləri - Sabir Hacıyev, Müşfiq Cəfərov, Eldəniz Səlimov, Emin Hacıyev də iştirak ediblər.

❖ ❖ ❖

Yanvarın 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin cari ilin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, videokonfrans formatında keçirilən iclasda komitə sədri Tahir Mirkişili yeni sessiyanın başlaması münasibətilə deputatlara təbriklərini çatdırıb və gələcək fəaliyyətlərində onlara müvəffəqiyyətlər arzulayıb.

Diqqətə çatdırılıb ki, iclasın gündəliyinə 2020-ci ilin payız sessiyası dövründə komitədə görülən işlər barədə hesabat, komitənin 2021-ci ilin yaz sessiyası üçün iş planı və bəzi qanunlara dəyişikliklərlə bağlı məsələlər daxil edilib.

Komitə sədri çıxışında ölkədə aparılan iqtisadi islahatlar fonunda yaz sessiyasının məhsuldar olacağını söyləyib. Qeyd edilib ki, koronavirusa qarşı vaksinasiyanın başlanması pandemiyanı nəzarət altına almağa və iqtisadi inkişafı sürətləndirməyə imkan verəcək.

Bildirilib ki, 2020-ci il ölkəmiz üçün mühüm il olub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz Azərbaycanın işğal altında olan torpaqlarını azad edib. Azərbaycan hökuməti çətinliklərin öhdəsindən layiqincə gəlib və biz Qələbə qazanmışıq. 2020-ci il həm də Dünya Bankının Azərbaycanı ən islahatçı ölkə elan etməsi ilə yadda qalıb.

2020-ci ilin payız sessiyası ərzində komitənin gördüyü işlər barədə danışan Tahir Mirkişili bildirib ki, hesabat dövründə komitənin 16 iclası olub, 67 məsələ, o cümlədən 65 qanun layihəsi müzakirə edilib. Onlardan Vergi Məcəlləsində dəyişiklik edilməsi, “Sahibkarlıq fəaliyyəti haqqında”, “Dövlət qulluğu haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” qanunlarda dəyişiklik edilməsi, “Əmanətlərin tam sığortalanması haqqında”, “Əmanətlərin sığortalanması haqqında”, “Mühasibat uçotu haqqında” qanunlarda dəyişikliklərin edilməsi, “Şərti maliyyə vahidi haqqında” qanunun ləğv edilməsi barədə və digər qanun layihələrini göstərmək olar.

Sessiya ərzində eyni zamanda “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında”, “İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında”, “Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında”, “Azərbaycan Respublikasında 2021-ci il üçün ehtiyac meyarının həddi haqqında” və “Büdcə sistemi haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihələri geniş müzakirə olunub. Komitə iclaslarında hökumət nümayəndələri, QHT və ictimai təşkilatların təmsilçiləri iştirak edib, öz rəy və təkliflərini veriblər.

Bu dövrdə komitəyə vətəndaşlar tərəfindən 47 ərizə, şikayət və müraciət daxil olub, onlardan 36-sı müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara göndərilib, 9 ərizə işə alınıb.

Sonra Tahir Mirkişili komitənin 2021-ci ilin yaz sessiyası üçün iş planını təqdim edib. Bildirilib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin, habelə “Lombardlar haqqında”, “Turizm haqqında” layihələrin müzakirəsi nəzərdə tutulub. Komitədə həmçinin “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsinə, Hesablama Palatasının 2020-ci ildə fəaliyyəti haqqında hesabata da baxılacaq.

Sessiya ərzində Mülki Məcəllənin və Vergi Məcəlləsinin, “İpoteka haqqında” və “İcra haqqında” qanunların bəzi müddəalarının əlaqəli şəkildə şərh edilməsinə dair Konstitusiya Məhkəməsi Plenumunun qərarının icrası ilə əlaqədar işçi qrupların yaradılması və onların işinin təşkili, aidiyyəti qurumlarla, sahibkarlarla, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərin, ictimai dinləmələrin keçirilməsi ilə bağlı bir sıra tədbirlər də planlaşdırılır.

İclasda komitə sədrinin müavini Əli Məsimli, deputatlardan Aydın Hüseynov, Mahir Abbaszadə, Ziyad Səmədzadə, Elnur Allahverdiyev, Vüqar Bayramov çıxış edərək 2020-ci ilin payız sessiyasında görülən işlər və 2021-ci ilin yaz sessiyasının iş planı ilə bağlı fikirlərini açıqlayıblar, bir sıra təkliflərini səsləndiriblər.

Sonra Tahir Mirkişili “İşsizlikdən sığorta haqqında” qanunda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, hazırda işsizlikdən sığorta ödənişinin təyin edilməsi ilə bağlı elektron xidmətlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir. Təklif olunan dəyişikliyə görə, sığorta ödənişinin təyinatı zamanı vətəndaş-məmur təması, habelə sığortaolunan və sığortaedən tərəfindən müxtəlif sənədlərin təqdim edilməsi zərurəti aradan qaldırılır.

Komitə sədri “Dövlət rüsumu haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini də təqdim edib. Diqqətə çatdırılıb ki, sənəd notariat xidmətlərinin göstərilməsi sahəsində vətəndaş məmnunluğunun artırılması məqsədilə hazırlanıb.

Qanun layihəsində sənədlərin surətinin təsdiqi üçün rüsumun miqdarı azaldılaraq 1,5 manat müəyyən edilib. Sənəddə təklif edilir ki, layihədə göstərilən bir sıra hallarda notariat hərəkətləri ilə əlaqədar xidmətə görə haqq tutulmasın.

Komitə üzvləri “İşsizlikdən sığorta haqqında” və “Dövlət rüsumu haqqında” qanunlara təklif olunan dəyişiklikləri zəruri hesab edərək hər iki sənədi Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

# Fevralın 1-dən tədris və təlim-tərbiyə prosesi mərhələli şəkildə əyani formada təşkil olunacaq

Nazirlər Kabineti xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər barədə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qərar qəbul edib.

AZƏRTAC xəbər verir ki, Qərara əsasən:

1. Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2021-ci il 1 fevral tarixindən tədris və təlim-tərbiyə prosesinin əyani formada təşkili sanitar-epidemioloji vəziyyətlə bağlı Azərbaycan Respublikasının baş dövlət sanitariya həkiminin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyləri əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin qərarına əsasən təhsil pillələri və səviyyələri üzrə mərhələli şəkildə təmin edilsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bu Qərarın 1-ci hissəsinə uyğun olaraq tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılmasının bərpası və ya dayandırılması barədə qərar qəbul edildiyi halda, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri də tabeliklərində olan təhsil müəssisələrinə münasibətdə eyni qərarlar qəbul edirlər;

2.2. xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na uyğun tənzimlənir.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

# Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair brifinq keçirilib





Yanvarın 22-də təhsil naziri Emin Əmrullayevin iştirakı ilə xüsusi karantin rejimi dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, brifinqdə çıxış edən təhsil naziri Emin Əmrullayev fevralın 1-dən ümumi təhsil müəssisələrində mərhələlərlə əyani tədrisə başlanılacağını diqqətə çatdırıb. Nazir bildirib ki, qeyd edilən tarixdən etibarən məktəbəhazırlıq qrupları, icmaəsaslı məktəbəqədər təhsil qrupları və ibtidai təhsil səviyyəsi üzrə tədrisin sanitar-gigiyenik tələblər nəzərə alınaraq ənənəvi formada təşkili nəzərdə tutulur. İbtidai siniflər üzrə əyani təhsilin iri şəhərlərdə, o cümlədən Bakı, Sumqayıt və Abşeronda həftədə 3 dəfə, digər bölgələrdə isə həftədə 4-5 dəfə olmaqla bərpası planlaşdırılır. Fevralın 1-dən sonrakı müddətdə isə V-IX siniflərdə təhsil alan şagirdlərin tədrisə ənənəvi qaydada cəlb olunması barədə qərar veriləcək.

Ali və orta ixtisas təhsili, eləcə də peşə təhsili müəssisələrində təhsilin təşkilinə toxunan təhsil naziri deyib ki, tələbələrin yüksək hərəkətlilik və yoluxma risklərini nəzərə alaraq tədris prosesi bu təhsil pilləsində məsafədən təhsil formasında davam etdiriləcək. Müəyyən bir tarixdən sonra isə praktik məşğələlər tələb olunan ixtisaslar üzrə tədris ənənəvi qaydada təşkil edilə bilər.

Təhsil naziri qeyd edib ki, əyani tədris forması təşkil edilən təhsil müəssisələrində mütəmadi olaraq monitorinqlər aparılacaq və ictimaiyyətə məlumat veriləcək.

# Azərbaycan ilə Böyük Britaniya arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Yanvarın 22-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Ceyms Şarp ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Zakir Həsənov azad edilmiş ərazilərdə ordumuz tərəfindən həyata keçirilən tədbirlər, həmçinin Azərbaycan Ordusunda aparılan islahatlar və digər məsələlər barədə səfirə məlumat verib.

Görüşdə iki ölkə arasında müdafiə, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıq üçün böyük potensialın olduğu və bu imkanların genişləndirilməsinin vacibliyi vurğulanıb. Tərəflər ölkələrimiz arasında hərbi təhsil sahəsində əldə olunan razılaşmaların həyata keçirilməsinin, hərbi ingilis dili kurslarında dinləyicilərin sayının artırılmasının zəruriliyini xüsusi vurğulayıb.

Öz növbəsində, diplomat Vətən müharibəsində qazanılan Qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib.

Azərbaycan-Böyük Britaniya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini bundan sonra da əsirgəməyəcəyini qeyd edən C.Şarp ikitərəfli əməkdaşlıq çərçivəsində Böyük Britaniyanın azad olunmuş ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərində Azərbaycana kömək göstərə biləcəyini bildirib.

Görüşdə regional və ikitərəfli əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

# Milli Kitabxanada "Böyük Azərbaycan şairi və mütəfəkkiri - Nizami Gəncəvi" adlı kitab sərgisi açılıb









Yanvarın 22-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Nizami Gəncəvi ili"nin açılışı münasibətilə "Böyük Azərbaycan şairi və mütəfəkkiri - Nizami Gəncəvi" mövzusunda kitab sərgisinin açılış mərasimi və "Azərbaycan əlyazmaları Praqa Milli Kitabxanasında" adlı qədim əlyazmaları kitab kataloqunun təqdimatı keçirilib.

Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə reallaşan tədbirdə eyni zamanda akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Böyük Britaniyanın Oksford Universiteti nəzdindəki Nizami Gəncəvi Mərkəzi tərəfindən ingilis dilində nəşr olunan Yevgeni Bertelsin "Böyük Azərbaycan şairi Nizami" kitabının da təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, tədbiri Milli Kitabxananın direktoru Kərim Tahirov açaraq, bu il ölkəmizdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 880 illiyi ilə əlaqədar şairin yaradıcılığının təbliği və oxuculara yaxından tanıdılması ilə bağlı bir sıra tədbirlərin keçirilməsinə start verildiyini söyləyib.

Bildirib ki, görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsinin Ulu Öndər tərəfindən başlanan ənənəsi bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir: "Ötən illər ərzində "Nəsimi ili", "Multikulturalizm ili" kimi neçə-neçə əlamətdar tədbirlər keçirilib, digər dahi şəxsiyyətlərimizin yubileyləri təşkil olunub. Bütün bunları Prezidentin mədəniyyətimizə, eyni zamanda Azərbaycanı dünyada tanıdan böyük şəxslərə qiyməti kimi dəyərləndirmək lazımdır. Təəssüflər olsun ki, vaxtilə Nizaminin, Füzulinin, Tusinin və bir çox başqa mütəfəkkirlərimizin əlyazmaları Azərbaycandan daşınıb aparılıb. Oxuculara və mütəxəssislərə təqdim olunan "Azərbaycan əlyazmaları Praqa Milli Kitabxanasında" adlı kataloqda öz əksini tapan qiymətli əlyazmalar da bir vaxtlar Azərbaycandan çıxarılaraq xarici ölkələrə aparılmış və taleyin hökmü ilə nə yollarlasa Çexiyaya, Praqa Milli Kitabxanasına gəlib çıxmışdır. Təəssüflər olsun ki, 100 ilə yaxın bir müddətdə həmin kitabxanada mühafizə olunmasına baxmayaraq, Azərbaycan, türk və farsdilli Azərbaycan nəfəsli bu qiymətli əlyazmalardan heç kimin xəbəri olmamış və bu səbəbdən də onlar tədqiq olunmamışdır. Dünya kitabxanalarında mühafizə olunan Azərbaycan əlyazmalarının bu günədək nəşr olunan heç bir kataloqunda da bu əlyazmalar öz əksini tapmayıb. Ən vacibi budur ki, Praqa Milli Kitabxanasında böyük Azərbaycan şairi Nizami Gəncəvinin ən qədim əlyazma nüsxələrindən birinin mühafizə olunduğu aşkar edilmişdir".

Mədəniyyət naziri Anar Kərimov bildirib ki, son illərdə Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinin yubileyləri ilə əlaqədar, habelə milli-mənəvi dəyərlərimizə hörmətə sadiqlik əlaməti olaraq Prezident tərəfindən sərəncamların imzalanması ənənəyə çevrilib: "Əksər tədbirlərin həm də UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin və ədəbiyyatının beynəlxalq miqyasda təbliğində müstəsna əhəmiyyətə malikdir. Bu il də dünya şöhrətli şair və mütəfəkkir Nizaminin 880 illik yubileyi respublikamızla bərabər, ISESCO-da, bütün dünyada, habelə TÜRKSOY tərəfindən türk dünyasında qeyd olunacaq".

Nazir qeyd edib ki, Mədəniyyət Nazirliyi və Milli Kitabxana Heydər Əliyev Fondunun və fondun vitse-prezidenti Leyla xanım Əliyevanın dəstəyi ilə artıq iki ildir "Milli mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində dünyanın milli kitabxanalarında və muzeylərində mühafizə edilən Azərbaycan ədəbiyyatı klassiklərinə mənsub olan qiymətli əlyazmaların müəyyən olunaraq elektron və kağız nüsxələrinin gətirilməsi layihəsini həyata keçirir: "Artıq bu layihə üzrə son 2 il ərzində 53 qiymətli əlyazmanın elektron və kağız surətlərinin Azərbaycana gətirilməsi təmin olunub ki, onların arasında Türkiyə, İran, Misir, ABŞ, Avstriya, Bosniya, Çexiya, Rusiya və digər ölkələrin milli kitabxanalarında saxlanılan Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Nəsrəddin Tusi, Sahib Təbrizi və digər klassiklərimizin qiymətli əlyazmaları var. Həmin əlyazmaların içərisində dahi Azərbaycan şairi Nizami Gəncəvinin bu günədək Azərbaycan elminə məlum olmayan qiymətli əlyazmalarını da qeyd etmək olar. İnanırıq ki, həmin əlyazmalar alimlərimiz və tədqiqatçılarımız tərəfindən geniş tədqiq olunacaq. Bu il "Nizami Gəncəvi ili" olduğuna görə biz bu il böyük Nizaminin əlyazmalarının surətlərinin Azərbaycana gətirilməsinə daha çox diqqət yetirəcəyik, Nizami haqqında və onun əsərlərindən ibarət çoxlu sayda kitab çap olunacaq, fundamental biblioqrafiyalar və ensiklopediyalar hazırlanacaq".

A.Kərimov Oksford Universiteti nəzdindəki Nizami Gəncəvi Mərkəzinin İdarə Heyətinin üzvü, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Azərbaycan və ingilis dillərində həmin mərkəz tərəfindən nəfis şəkildə nəşr olunmuş, böyük rus şərqşünası Yevgeni Bertelsin "Böyük Azərbaycan şairi Nizami" kitabını nizamişünaslıq elminə böyük töhfə kimi dəyərləndirib. Nazir "Azərbaycan nəfəsli əlyazmaları Praqa Milli Kitabxanasında" adlı kataloqu da "Milli mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində atılan dəyərli addımlardan biri hesab edib: "Bu kataloqda əksini tapan bir sıra əlyazmaların, o cümlədən Nizami Gəncəvinin "Xəmsə"sinin XIV-XV əsrlərə aid ən qədim əlyazmalarının də adı var. Çox təəssüf ki, onların əksəriyyətinin bu günədək Azərbaycanda və dünyada nəşr olunan əlyazma kataloqlarında adı yoxdur, bu səbəbdən də alimlərimiz və mütəxəssislərimiz tərəfindən tədqiq olunmayıb. İnanıram ki, Milli Kitabxanamız bu kataloqda əhatə olunan əlyazmalarının elektron surətlərinin Azərbaycana gətirilməsinə nail olacaq və onları mütəxəssislərimizin istifadəsinə təqdim edəcək".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirib ki, bu il çox böyük mədəniyyət hadisələri ilə zəngin olacaq. İl ərzində "Nizami Gəncəvi ili" ilə bağlı tədbirlərlə yanaşı, işğaldan azad olunan və mədəniyyətimizin paytaxtı elan edilən Şuşada "Xarıbülbül" festivalı və Vaqif poeziya günləri qeyd ediləcək: "Bu tədbirlər Azərbaycan mədəniyyətinin dünyada tanıdılması ilə yanaşı, gənc nəslin mədəniyyətimizi yaxından dərk etməsinə yardım edəcək. Bu gün Nizaminin öncə gənclərimizə tanıdılmasına böyük ehtiyac var. Bu baxımdan bugünkü tədbirdə təqdim olunan kitablar böyük əhəmiyyət daşıyır. Oksford Universitetində Nizami Mərkəzinin yaradılması və Bertelsin "Böyük Azərbaycan şairi Nizami" kitabının ingilis dilində çapını Nizami irsinin tanıdılmasında mühüm addım hesab edirəm".

Tədbirdə Xalq yazıçıları Elçin, Kamal Abdulla, akademiklər Nizami Cəfərov, Teymur Kərimli, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid və Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova çıxış edərək Prezident İlham Əliyevin bu ili "Nizami Gəncəvi ili" elan etməsini ölkəmizdə klassik ədəbi irsimizə, milli ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli simalarının tanıdılmasına müstəqil Azərbaycan dövlətinin göstərdiyi xüsusi diqqətin və böyük qayğının əməli ifadəsi olduğunu qeyd ediblər. Vurğulayıblar ki, Nizami Gəncəvinin zəngin bədii irsini müasir dövrdə azərbaycançılıq və müstəqil dövlətçilik işığında yenidən tədqiq və təbliğ etməyə, onu dünyaya məhz Azərbaycan şairi kimi daha çox tanıtmağa ehtiyac vardır.

Sonra Xalq artisti Məleykə Əsədova və Əməkdar artist Elşən Rüstəmov Nizaminin şeirlərini səsləndiriblər.

# Azərbaycan XİN Avropa Parlamentinin qəbul etdiyi qətnaməyə münasibət bildirib

"İlk növbədə, onu vurğulamaq istərdim ki, bu il yanvarın 20-də Avropa Parlamentinin (AP) qəbul etdiyi illik doktrinal və hüquqi təsirə malik Ümumi Xarici və Təhlükəsizlik Siyasətinin tətbiqi barədə qətnamə və 2021-ci il üçün yol xəritəsi sayılan bu hesabat sənədində növbəti dəfə Şərq Tərəfdaşlığı ölkələrinin (o cümlədən Azərbaycanın) beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə Aİ-nin dəstəyi birmənalı şəkildə əks olundu. Bəzi ermənipərəst dairələrin səylərinə baxmayaraq, 44 günlük Vətən müharibəsindən sonra Avropa İttifaqının Azərbaycanın və digər Şərq Tərəfdaşlığı ölkələrinin ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına dəstəyə dair mövqeyində hər hansı dəyişiklik baş vermədi".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın KİV-in Avropa Parlamentinin qəbul etdiyi qətnamə ilə bağlı sualına cavabında yer alıb.

Leyla Abdullayeva daha sonra bildirib: "Sənəddə həmçinin qeyd edilir ki, Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanat müsbət qarşılanır, gələcək sülh üçün bu razılaşmanın daha yaxşı perspektivlər açacağına ümid ifadə olunur. Burada mülki əhalinin öldürülməsi, mülki infrastrukturun dağıdılması, kasetli döyüş sursatlarından istifadə pislənir və bu xüsusda həm Ermənistan, həm də Azərbaycana çağırışlar edilir. Sənəddə məcburi köçkünlər və qaçqınların evlərinə geri qayıtması, ehtiyacı olanlara humanitar yardımın göstərilməsi, habelə müharibə cinayətlərinə məsul olanların qanun qarşısında cavab verməsi kimi məsələlər əks olunub.

Bir sözlə, Avropa Parlamenti qətnamədə Şərq Tərəfdaşlığı ölkələrindəki münaqişələrlə bağlı bütün məsələlərin həllini məhz beynəlxalq hüquq əsasında, ilk növbədə, isə ŞT ölkələrinin beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüklərinin Aİ tərəfindən qətiyyətli dəstəklənməsi əsasında həll edilməsinin vacibliyini son 4 ildə olduğu kimi bir daha vurğulayıb.

O ki qaldı qətnamədə əks olunmuş bəzi əsassız və gecikmiş məqamlara, onlara aydınlıq gətirmək istərdik. İlk növbədə, bölgənin gələcək statusu və Dağlıq Qarabağın erməni əhalisi və irsinin təhlükəsizliyinin təmin olunması məsələsi ilə bağlı mövqeyimiz bəllidir və birmənalı şəkildə dəfələrlə ifadə olunub. Bu mövqe ilə tanış olmayan AP üzvlərinin diqqətinə bir daha çatdırırıq ki, Azərbaycan Prezidenti status məsələsini tarixin zibilliyinə yollayıb, erməni əhalisinin və irsinin təhlükəsizliyinə gəldikdə isə, Azərbaycan ərazisindəki bütün vətəndaşların hüquqları etnik mənsubiyyətindən və dinindən asılı olmayaraq Azərbaycan Konstitusiyası ilə təmin olunur, tarixi-mədəni abidələr isə dövlət səviyyəsində qorunur.

Qətnamədə qardaş Türkiyə ilə bağlı əsassız iddialar əks olunub, həqiqəti əks etdirməyən qərəzli fikirlərə yer verilib. Vurğulayırıq ki, Türkiyə bölgənin aparıcı ölkələrindən biridir, bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında maraqlıdır və bu xüsusda müstəsna rol oynayır".

# ADA Universiteti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və səmərəli təşkili mövzusunda sosioloji tədqiqat layihəsini həyata keçirəcək

**Azərbaycan Ali Baş Komandanın rəhbərliyi altında Vətən müharibəsində qalib gələrək tarixi uğura imza atıb. Bu tarixi uğur eyni zamanda ölkəmizin gələcək inkişafı üçün yeni bir dövrün başlanğıcıdır.**

Məhz buna görə də işğaldan azad edilmiş torpaqlarımızın bərpası və həmin yerlərdə hərtərəfli inkişafın təmin edilməsi prioritet vəzifələrdən biridir.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Əlaqələndirmə Qərargahı yaradılıb. Qərargahın nəzdində müxtəlif işçi qruplarından ibarət İdarələrarası Əlaqələndirmə Mərkəzi fəaliyyət göstərir.

Bu işçi qruplarından biri olan Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupunun əsas fəaliyyət istiqaməti işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesi ilə bağlı elmi tədqiqatların və təhlillərin aparılmasıdır. İşçi qrupu müxtəlif elmi dairələr və tədqiqat mərkəzlərini təmsil edən tanınmış alimlərdən ibarətdir.

2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərə qayıdışla əlaqədar məcburi köçkünlər arasında sorğular keçirilməsi və onların niyyətinin öyrənilməsi barədə müvafiq tapşırıq verdiyini bildirib. Qarşıdan gələn dövrdə məsələ ilə bağlı ümumi rəyin müəyyənləşdirilməsi, həmin ərazilərə qayıdanların ehtiyaclarının, onların bərpa işlərində iştirak imkanlarının, sahibkarların işğaldan azad olunmuş ərazilərə cəlb edilməsi şərtlərinin öyrənilməsi məqsədilə məcburi köçkünlər, habelə sahibkarlar arasında sorğuların keçirilməsi planlaşdırılır.

Qeyd olunan layihənin ADA Universiteti nəzdində yaradılan xüsusi tədqiqat qrupu tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə layihəyə universitetin akademik heyəti ilə yanaşı, bir sıra nüfuzlu yerli və beynəlxalq beyin mərkəzləri və elmi-tədqiqat institutları, habelə ayrı-ayrı tanınmış alim və mütəxəssislərin cəlb olunması planlaşdırılır.

Sorğuların keçirilməsi ərəfəsində və onların nəticələri ilə bağlı KİV-də və sosial mediada müvafiq məlumatlar mütəmadi şəkildə təqdim ediləcəkdir.

Tədqiqata hazırlıq məqsədilə ADA Universitetində keçirilmiş görüşdə universitetin rektoru Hafiz Paşayev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi - Akademik və Təhsil Məsələləri üzrə İşçi Qrupunun rəhbəri Emin Hüseynov və qrupun digər üzvləri iştirak ediblər.

Görüşdə sözügedən sosioloji tədqiqatın həyata keçirilməsi ilə bağlı görüləcək işlər, sorğuların hazırlanması və aparılması zamanı diqqət yetirilməli olan məqamlar və digər aidiyyəti məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Yaxın zamanlarda müvafiq sorğuların keçirilməsinə başlanması nəzərdə tutulur.

♦ İlin uğurlu yekunları



# Zəfər salnaməsi

## Azərbaycan tarixinin 44 şərəf günü

*Əvvəli 1-ci səh.*

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

***10 noyabr 2020-ci il.***
***Azərbaycan Respublikasının Prezidenti***
***Ermənistan Respublikasının baş naziri***
***Rusiya Federasiyasının Prezidenti***

### İlham ƏLİYEV: "Bu bəyanat bizim şanlı qələbəmizdir"

Beləliklə, döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. "Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur", - deyə Prezident İlham Əliyev noyabrın 10-da xalqa müraciətində bildirdi.

Bəyanatda digər önəmli məqam ondan ibarətdir ki, burada Dağlıq Qarabağa hər hansı statusun verilməsindən söhbət getmir və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunur. Bu, Azərbaycanın tam və qeyd-şərtsiz qələbəsinin əyani sübutudur.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətindən sonra Azərbaycanın hər yerində insanlar Qələbəni qeyd etmək üçün küçə və meydanlara axışdılar. Ümumxalq şənliyi noyabrın 10-a keçən gün gecə saatlarından başlayaraq gün ərzində davam etdi. Əllərində ay-ulduzlu bayraqlar dalğalandıran, Müzəffər Ali Baş Komandan İlham Əliyevin portretlərini tutan insanlar gün boyu tarixi Qələbədən doğan sevinc və qürur hisslərini paylaşıb, xalqımıza bu möhtəşəm zəfəri yaşadan dövlət başçısına minnətdarlıqlarını ifadə etdilər.

Gecə saatlarından başlayaraq qəhrəman Vətən övladlarımızın uyuduğu Şəhidlər xiyabanında da böyük izdiham yaşandı. Şəhid məzarlarını ziyarət etməyə gələn insanların ardı-arası kəsilmədi.

### Mehriban ƏLİYEVA: "Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu!"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi "İnstagram" səhifəsində paylaşım etdi. Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Bu gün böyük gündür - Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu! Həqiqətən əlamətdar olan bu hadisə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm!

Ermənistan özünün tam və qeyd-şərtsiz kapitulyasiyasını etiraf etdi! Biz öz nəcib xilaskar missiyamızı şərəflə yerinə yetirdik! Biz öz Vətənimizi qoruduq, əzəli Azərbaycan torpaqlarını işğaldan azad etdik, Azərbaycanın səbirlə gözlədiyi Qələbəni qazandıq! Biz uzun illər boyu həqiqətin və tarixi ədalətin təntənəsini gözləyirdik. Münaqişənin dinc yolla nizamlanmasına dair danışıqlar prosesində 30 ilə yaxın iştirak etməyimiz bizim sülh tərəfdarı olmağımızın əyani göstəricisidir. Ermənistan 27 il ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərib. Ermənistan tərəfindən törədilən hərbi təxribatlar bitib-tükənmirdi. Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o, özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi!

2020-ci il sentyabrın 27-dən davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan Ordusu təqribən 300 yaşayış məntəqəsini, o cümlədən 5 şəhəri və 4 qəsəbəni, çoxsaylı strateji yüksəklikləri azad etdi. Azərbaycanın mədəniyyət incisi - Şuşa şəhəri azad ediləndən cəmi bir neçə saat sonra bizim döyüşçülərimiz 72 yaşayış məntəqəsini və 9 strateji yüksəkliyi öz nəzarəti altına almağa nail oldu. Bu, şübhəsiz, Ermənistanın hərbi və siyasi rəhbərlərini çıxılmaz vəziyyətə saldı. Bizim ordumuz öz müqəddəs dəyərləri - Vətənimiz, ortaq evimiz uğrunda döyüşürdü və bu müqəddəs mübarizədə dözüb dayandı və qalib gəldi!

Bu anlarda bütün dünya azərbaycanlıları sevinc və qürur hissləri keçirir. Bizim Prezidentimizə görə, igid əsgərlərimizə və zabitlərimizə görə, Azərbaycan xalqının vətənpərvərliyinə, sıx birliyinə və həmrəyliyinə görə qürur keçirir!

Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Onun rəhbərliyi ilə müasir, güclü Azərbaycan Ordusu yaradılıb! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu. Prezidentimizin güc mənbəyi olan Azərbaycan xalqının hörməti, sevgisi, etimadı, inamı və dəstəyi ona Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini başa çatdırmaqda kömək etdi. Onun başçılığı ilə biz xalqımızın özünəinamını qaytaran Qələbəni qazandıq! Bu Qələbənin möhtəşəmliyi Azərbaycan dövlətinin tarixində əbədi qalacaq!

Əziz qardaşlar və bacılar!

Torpaqlarımızın xaincəsinə işğalı illərində olduğu kimi, budəfəki döyüşlər dövründə də faciələr və itkilər oldu. Hərbi əməliyyatlar zonasından uzaqda vəhşicəsinə hücumlar nəticəsində şəhərlərimizin və kəndlərimizin dinc sakinləri həlak oldu. Uşaqlar, qadınlar və ahıl insanlar həlak oldu. Amma bu, Azərbaycanın əzmini sındırmadı! Mən həlak olanların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm! Onların qanı yerdə qalmadı! Azərbaycan Ordusu, Azərbaycan dövləti bütün həmvətənlərimizin axıdılmış qanına görə qisas aldı!

Vətənimizi müdafiə edən, onu dirçəldən nəslin işıqlı xatirəsi, bu nəslə hörmət və ona görə səmimi qürur hissi hər bir azərbaycanlının qəlbində həmişəlik qalacaq! Bizim əsgər və zabitlərimiz canlarını belə əsirgəmədən döyüşüblər. Onlar nəciblik və həqiqi vətənpərvərlik nümunəsi göstəriblər. Bu gün onların hamısını Vətən naminə, onun qüdrəti naminə göstərdikləri igidliklər birləşdirir! Biz onların rəşadəti, iradəsi və ruh yüksəkliyi qarşısında, öz mətanəti ilə işğalçını sarsıdan, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən hər kəsin qarşısında baş əyirik! Adları Azərbaycan dövlətinin tarixinə əbədi olaraq yazılan bu cür igid övladlar böyüdüb tərbiyə etmiş valideynlərin qarşısında baş əyirik! Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Bu müharibə bizə əsrlərboyu bildiyimiz bir həqiqəti - dost dar gündə tanınar həqiqətini bir daha sübut etdi. Dünyadakı bütün dostlarımıza minnətdaram! Sağ olsunlar ki, bizim dərdimizə şərik oldular, Azərbaycan xalqını dəstəkləyən prinsipial və ədalətli mövqelərini açıq bildirdilər. Qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana xüsusi təşəkkürümü bildirirəm. Onların həmrəyliyi və dəstəyi hər bir azərbaycanlıda qürur hissi oyadır!

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm. Onların yüksək peşəkarlığı, obyektivliyi, qərəzsizliyi, operativliyi və məsuliyyəti sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün oldu. Öz vətənlərinin hüdudlarından kənarda Azərbaycanın mövqeyini müdafiə edən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən soydaşlarımız sağ olsunlar! Arxa cəbhədə bir yumruq kimi birləşərək Azərbaycan dövlətinin qüdrətini və bizim həmrəyliyimizi bütün dünyaya nümayiş etdirmiş bütün Azərbaycan xalqına minnətdaram!

Əziz həmvətənlər!

Sizin hamınızı Böyük Qələbə Günü münasibətilə təbrik edirəm! Böyük zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN".

Həmin günlərdə dünyanın tanınmış KİV-i öz səhifələrində Azərbaycanın qələbəsindən, Ermənistanın məğlubiyyətindən bəhs etdilər. Qələbə münasibətilə Prezident İlham Əliyevə təbrik məktubları göndərildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Dostluq" həm də iki ölkə arasında dostluğun möhkəmlənməsinə xidmət edir

## Azərbaycan və Türkmənistan birgə işləyəcəkləri karbohidrogen yatağına bu adı təsadüfən verməyiblər

*Əvvəli 1-ci səh.*

Videokonfrans formatında keçirilən görüşdə Prezident İlham Əliyev Azərbaycanın və Türkmənistanın ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başladıqlarını vurğulayaraq demişdir: "Bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək... Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq".

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov enerji sahəsindəki əməkdaşlığı yüksək dəyərləndirir: "Bu gün Türkmənistan ilə Azərbaycan Respublikası arasında münasibətlər ardıcıl və dinamik inkişaf edir. Biz beynəlxalq arenada ümumi sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinin tərəfdarları kimi uğurla əməkdaşlıq edirik. Bizim ölkələr qlobal gündəliyin prinsipial əhəmiyyətli mövzusu olan enerji təhlükəsizliyi, beynəlxalq enerji axınlarının konfiqurasiyası barədə təsəvvürlər və bütövlükdə dünya energetikasının arxitekturası haqqında eyni fikirdədirlər".

Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunu Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri Rəşid Meredov imzalamışlar.

Hər iki ölkənin həyatında əlamətdar olan bu tarixi hadisə, qeyd edildiyi kimi, dostluğun və əməkdaşlığın daha da möhkəmləndirilməsinə istiqamətlənib. İmzalanan sənəd strateji istiqamətdə - enerji sahəsində Türkmənistan-Azərbaycan tərəfdaşlığında prinsipcə yeni səhifə açır. Bunun üçün zəruri olan bütün şərtlər mövcuddur, yəni həm siyasi iradə, həm yüksək səviyyəli texniki və texnoloji təchizat, peşəkar kadrlar və neft-qaz sahəsində zəngin iş təcrübəsi var. Xəzərdə birgə uğurlu fəaliyyətin əsas rəhni isə Azərbaycan və türkmən xalqlarının çoxəsrlik möhkəm qardaşlıq telləridir ki, bu da iki dövlət başçısının videokonfrans formatında keçirilən görüşündə bir daha vurğulanmışdır.

Ölkələrimiz digər sahələrdə də əməkdaşlığı və tərəfdaşlığı davam etdirirlər. Tərəfdaşlığın mühüm bir sahəsi nəqliyyat sferasıdır. Belə ki, Türkmənistan və Azərbaycan bu gün əfqanıstanlı, gürcüstanlı və türkiyəli tərəfdaşları ilə birlikdə Asiya ilə Avropa arasında ən mühüm kontinental magistrala çevrilməli olan Lapis-Lazuli nəqliyyat dəhlizinin səmərəli fəaliyyəti üzərində ardıcıl iş aparırlar. Azərbaycan və Türkmənistan həm də Xəzər dənizi-Qara dəniz nəqliyyat yolu sisteminin yaradılmasının təşəbbüskarları sırasındadırlar.

Nəqliyyat sahəsində əməkdaşlıq həm bu iki ölkə, həm də onların qonşuları üçün böyük perspektivlər açır. Prezident İlham Əliyevin dediyi kimi: "Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq".

Nəqliyyat sferası da enerji sferası kimi, ölkələri birləşdirir. Azərbaycan və Türkmənistan Xəzər regionunda möhkəm sülh, mehriban qonşuluq, qarşılıqlı anlaşma və əməkdaşlıq şəraiti yaradılmasında xüsusi səylər göstərir və töhfələr verirlər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Vətəndaş dövlətinin arxasında olduğu kimi, dövlət də vətəndaşının yanındadır

*Əvvəli 1-ci səh.*

Ölkəmizdə torpaqlarımızın düşmən işğalından azad olunmasında fədakarlıq göstərmiş insanların əməyi də yüksək dəyərləndirilir. Dövlət başçısının sərəncamı ilə keçən il dekabrın 31-də şəhid ailələrinin təqaüdü 500, 1-ci qrup müharibə əlillərinin təqaüdü 400, 2-ci qrup müharibə əlillərinin təqaüdü 350, 3-cü qrup əlillərinin təqaüdü isə 300 manata qədər artırılmışdır. Eyni zamanda Milli qəhrəmanların təqaüdü artırılaraq 1800 manata çatdırılmışdır. Ölkə rəhbərinin müvafiq sərəncamı ilə yeni bir təqaüd - Vətən Müharibəsi Qəhrəmanına Azərbaycan Respublikası Prezidentinin 2 min manat məbləğində təqaüdü təsis edilmişdir. Onu da qeyd edək ki, İkinci Qarabağ müharibəsi döyüşlərində iştirak edən və ya şəhid olan vətəndaşların ailələri ilə bağlı görülmüş işlər 7 min şəxsi əhatə etmişdir. Onların 2300 nəfərinə sosial ödənişlər təyin olunmuşdur. Eyni zamanda şəhid və Vətən müharibəsi iştirakçısının ailələri özünəməşğulluq proqramına cəlb edilmişdir.

Yeri gəlmişkən, özünəməşğulluq proqramı İşdən Sığorta Fondu ilə yanaşı, BMT İnkişaf Proqramının, yerli bankların, Heydər Əliyev Fondunun dəstəyi ilə icra edilir. Təkcə ötən il özünəməşğulluq mərkəzləri tərəfindən 100 min vətəndaş işlə təmin edilib, 12 min ailə özünəməşğulluğa cəlb olıunub. Cari il daha 16 min ailənin bu proqrama cəlb olunması planlaşdırılıb. Bundan əlavə, haqqı ödənilən ictimai işlər proqramı icra olunur və yaradılmış 38 min daimi iş yerinin 98 faizi işçilərlə təmin edilib.

Pandemiya ilə əlaqədar sosial dəstəyə ehtiyacı olanlar da unudulmur. Məlumdur ki, ölkədə 600 min işsizə, o cümlədən qeyri-formal işləyən şəxslərə birdəfəlik 190 manat ödəmə proqramı icra edilir. Keçən il bu məqsədlər üçün 450 milyon manat vəsait sərf olunub. Həmçinin 110 min aztəminatlı ailəyə 3 dəfə ərzaq yardımı göstərilib, yaşı 65-dən yuxarı olan və tənha yaşayan şəxslərə daimi sosial dəstək verilib.

Bildiyimiz kimi, Vətən müharibəsi zamanı ermənilər tərəfindən kənd və şəhərlərimizin atəşə tutulması nəticəsində 100 nəfərə yaxın vətəndaşımız həlak olub, 400 nəfərə yaxın dinc sakin yaralanıb, minlərlə mülki obyektlər dağıdılıb. Ümumilikdə 9294 fərdi yaşayış evi, 440 sahibkarlıq obyekti, 227 nəqliyyat vasitəsi, 518 kənd təsərrüfatı obyektinə ziyan dəyib. Dövlət tərəfindən vətəndaşlara dəyən ziyanı ödəmək üçün 9 milyon 100 min manat vəsait ayrılıb. Hazırda həmin vəsaitin vətəndaşlara ödənilməsi prosesi icra olunur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Qeyri-neft sənayesinin şaxələndirilməsi iqtisadi reallığın tələbidir

## Sumqayıtda daha bir müəssisə açıldı, ikisinin isə təməli qoyuldu

*Əvvəli 1-ci səh.*

Bununla da həm daxili bazarın tələbatı tam ödəniləcək, həm də ixrac potensialı yaranacaq. Müəssisənin investisiya dəyəri 12 milyon dollardır, burada 160 nəfər daimi işlə təmin ediləcək.

İstismara daxil olan vərəqə şüşə istehsalı zavodu Azərbaycanda termoformalaşdırılmış şüşə hazırlanması üzrə ilk müəssisədir.

Ümumi investisiya dəyəri 100 milyon avro olan zavodda ildə 80 min ton müxtəlif çeşiddə vərəqə şüşə istehsal ediləcək. Layihələndirilməni və qabaqcıl texnologiyalarla təchizatı Almaniyanın dünyada şüşəəritmə texnologiyaları sahəsində 135 illik təcrübəyə malik "HORN Glass Industries AG" şirkəti təmin edib. Müəssisədə İtaliya, Finlandiya və Çin texnologiyalarından da istifadə olunur.

Xatırladaq ki, bu müəssisələrin yerləşdiyi Sumqayıt Kimya Sənaye Parkı Azərbaycanın ilk və Cənubi Qafqazın ən böyük sənaye parkıdır. Burada qeydiyyata alınmış 24 rezidentdən 15-i artıq fəaliyyətinə başlayıb. Sənaye parkı məhsul istehsalı və ixracı istiqamətində uğurlarını getdikcə artırır. Keçən il parkda 1,1 milyard manatlıq, yəni ondan əvvəlki illə müqayisədə 37 faiz çox məhsul istehsal edilib. İxrac isə 2019-cu ilə nisbətən 18 faiz artıb. Bu da onu



göstərir ki, hazırkı dövrdə sənaye parkları və məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, neft-qaz amilindən asılılığın daha da azaldılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına böyük dəstək verir.

Prezident İlham Əliyev Sumqayıtda Azərbaycan Televiziyasına verdiyi müsahibədə sözügedən sənaye parkı haqqında demişdir: "Sovet vaxtında burada tikilmiş çoxsaylı müəssisələr istismar müddətini başa vurmuşdu, sıradan çıxmışdı və ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi. O müəssisələr söküldü və mənim göstərişimlə 10 il bundan əvvəl onların ərazisində 500 hektar sahəni əhatə edən Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Son illər ərzində bu sənaye parkı o qədər böyüdü və genişləndi ki, artıq göstəriş verildi, əlavə torpaq sahələri tapılsın və bu istiqamətdə işlər aparılır".

Parkın ərazisində iki müəssisənin təməlinin qoyulması və bir zavodun işə salınması iqtisadi sahədə uğurların davamı və prioritet kimi müəyyənləşdirilən sənayeləşmə siyasətinin növbəti təzahürü kimi qiymətləndirilir. Bu, qeyri-neft sənayesinin şaxələndirilməsinə daha bir töhfədir. Bu həmçinin göstərir ki, ölkəmizdə qeyri-neft sektoru uğurla inkişaf edir. Bütün dünyada keçən il iqtisadi tənəzzül ili olduğu halda bizdə tənəzzül cəmi 4,3 faiz təşkil etmişdir. Qeyri-neft sənaye sahəsində 12,5 faiz artım əldə etmişik. Dövlət başçısı qeyd etmişdir ki, yeni müəssisələrin yaradılması, sənaye, kənd təsərrüfatı, qeyri-neft sektoru, ixrac imkanları, idxaldan asılılığın azaldılması - bütün bu amillər bugünkü yeni reallığı yaradıb.

Bu istiqamətdə işlərin davamı ölkəmizin uzunmüddətli dayanıqlı inkişafını təmin edəcək.

***F.SADIQLI,***
***"Azərbaycan"***



**QARABAĞ dirçəliş yolundadır**



# Ağdam yenidən ağ günlərə qovuşacaq



**Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir. Mən də minlərlə Azərbaycan vətəndaşı kimi, 90-cı illərdə doğma ata yurdundan məcburi köçkün düşən sakinlər sırasındayam. O illərdə ermənilərin azğınlıqlarının, dinc sakinlərə qarşı qəddarcasına terror və soyqırım törətməsinin qarşısını almaq mümkün deyildi.**



Sıravi sakinlərin mübarizəsi, vətəni müdafiəyə qalxan əhalinin əliyalın, adi silahlarla düşmən qarşısına çıxması itki və məğlubiyyətlə nəticələnirdi. Qarabağın, eləcə də yurdumuzun başqa bölgələrindən vətəni müdafiəyə gələn minlərlə igid bu müharibədə həlak oldu. O zaman mövcud olan hakimiyyətin səriştəsizliyi də torpaqlarımızın işğalına yol açdı.

İndi həmin acı tarix geridə qalıb. 2020-ci ilin payız ayları bu tarixi xoş və müjdəli, qələbə tarixi ilə əvəz etdi. Prezident İlham Əliyev müraciəti zamanı demişdir: "Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız". Bu ifadə qəlbimizi o qədər sərinlətdi ki, sözlə ifadə etmək mümkün deyil.

Bir ağdamlı kimi həm ata yurdumun, həm də digər bölgələrin azad edlməsi mənə qürur verir. Uşaqlıq və gənclik illərimin keçdiyi, əzizlərimlə, qohumlarla, dostlarla keçirdiyimiz sevincli-kədərli illər bir-bir gözlərimin önündən keçir. Efirdə yayılan videogörüntülərdə doğma elimizin viranəyə çevrildiyini gördükcə məni dəhşət bürüyür. O cür gözəllikləri, yaşıllıqları, yaraşıqlı memarlıq abidələrini, inzibati binaları, məktəbləri, evləri tamamən dağıdıblar, meşələri yandırıblar. Onlar təkcə düşmən deyil, həm də insanlıqdan uzaq canlılar imiş.

Lakin bunlar arxada qaldı. Dövlət başçısı Prezident İlham Əliyevin dediyi kimi, indi "Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir". Amma bu tarix Azərbaycan xalqına, o cümlədən Ağdama ucuz başa gəlməyib. Ağdamlılar həm Birinci, həm də İkinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşmuşlar, çoxlu şəhidlər vermişik. Rayonun işğal olunmuş ərazilərində son illər böyük quruculuq, abadlıq işləri aparılmışdır. Prezidentin göstərişilə Ağdam rayonunun inzibati mərkəzinə çevrilmiş Quzanlı qəsəbəsində sosial obyektlər, infrastruktur və sənaye müəssisələri, iş yerləri yaradılmış, infrastruktur layihələri icra olunmuş, böyük Olimpiya İdman Kompleksi, xəstəxana, məktəblər, Muğam Mərkəzi inşa edilmişdir.

2010-cu ilin noyabr ayında erməni separatçıları Ağdama eybəcər bir ad qoymuş və rayonun işğal edilmiş ərazilərində 360 nəfəri qanunsuz olaraq daimi məskunlaşmışlar. Ermənistan məktəbləri üçün hazırlanan dərsliklərdə qondarma "Dağlıq Qarabağ Respublikası"nın xəritələri dərc edilərkən orada işğal edilmiş bütün ərazilər, o cümlədən Ağdam bu qondarma quruma aid edilmişdir. Bu onların xəyalları idi. Amma sən saydığını say... Prezident İlham Əliyevin dediyi kimi: "İndi nə oldu bu xəritələr? İndi bu xəritələr cəhənnəmə getdi, bu xəritələr artıq yoxdur".

Təəssüf ki, işğalçıların Ağdama vurduqları ziyan təkcə bu deyil. Ermənilər Ağdamda olan evləri dağıtmaqla yanaşı, onun daşlarını da söküb aparmış, mədəni abidələri talan edərək bütün infrastrukturu məhv etmişlər. Çörək Muzeyi, Tarix Ölkəşünaslıq Muzeyi, tarzən Qurban Pirimovun Xatirə Muzeyi, Ağdam Şəkil Qalereyası, Xaçındərbənd kəndindəki 1314-cü ildə tikilmiş Qutlu Sarı Musa oğlu Türbəsi, Kəngərli kəndindəki XIV əsrə aid Türbə və Daş abidələr, Papravənd kəndində XVIII əsrə aid gümbəz və məscid, Ağdamda İmarət deyilən yerdə XVIII əsrə aid abidələr, Xan qızı Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Şahbulaq ərazisindəki Şahbulaq qalası və Karvansara vəhşicəsinə dağıdılmışdır. Bunlardan əlavə, Papravənd kəndində yerləşən Şeyx Nigar, Seyid Miriş ağa, Qara Pirim və digər ziyarətgahlar darmadağın olunmuşdur.

Amma bilirik ki, bütün dağıdılanlar bərpa ediləcək, özü də tez bir zamanda. Çünki Azərbaycan inkişaf yolundadır. Bu inkişaf hesabına Ağdam rayonunun Azərbaycanın nəzarətində olan hissəsində 18 köçkün şəhərciyi salınmış, rayona 93 min köçkün yerləşdirilmişdir. Görülmüş işlər və böyük investisiyalar hesabına bu gün Ağdamın əhalisinin 45 faizi rayonun öz ərazisində yaşayır. Məhz bu səbəbdən inanırıq ki, Ağdam yenidən Azərbaycanın sürətlə inkişaf etdiyi rayonlarından birinə çevriləcək. Ağdam şəhərinin bərpası üçün baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən hər cür kömək göstəriləcək. Bütün bunlar tezliklə gerçəkləşəcək. Çünki bizdə "İşğaldan azad edilmiş bütün rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır" deyən Prezidentə böyük inam var.

***Sahib ƏLİYEV,***
***pedaqogika üzrə fəlsəfə doktoru***

# Şuşada yeni yarımstansiya tikilir



*maket*



Şuşa şəhərinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, şəhərin etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" Şuşada 110/35/10 kilovoltluq yeni yarımstansiya tikir.

Şuşa şəhərinin girişində müasir avadanlıqlarla təchiz edilərək tikilən yeni yarımstansiya məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulacaq. Burada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılır. Şuşanın milli ornamentləri qorunmaqla müasir üslubda inşa ediləcək yarımstansiyanın idarəetmə binasında bütün parametrlər nəzərə alınıb. Havanın dumanlı, qarlı və şaxtalı olmasına baxmayaraq, işlər sürətlə davam etdirilir.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərin böyük hissəsinin, o cümlədən "Şuşa" yarımstansiyasının Azərbaycanın ümumi enerjisisteminə qoşulması üçün Füzulidəki "Şükürbəyli" yarımstansiyası genişləndirilərək tam yenidən qurulur və yarımstansiyaya İmişlidən 110 kilovoltluq 51 km məsafədə yeni xətt gətirilir. Ən əsası isə Füzulidən Şuşaya 75 km məsafədə 110 kilovoltluq ikidövrəli "Şuşa-1", "Şuşa-2" hava elektrik xətləri çəkilir. Artıq hava elektrik verilişi xəttində 70 faiz işlər görülüb, yaxın müddətdə işlər yekunlaşacaq. Füzulinin Şükürbəyli, Xocavəndin Böyüktağlar, Şuşanın Daşaltı kəndindən keçən yüksəkgərginlikli hava xətti ən çətin dağlıq, meşəlik relyefdə, qarlı, dumanlı, yağışlı hava şəraitində növbəli iş prinsipi ilə həyata keçirilir.

Onu da qeyd edək ki, yaxın vaxtlarda işğaldan azad edilmiş Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında da 110 kilovoltluq yeni yarımstansiyaların inşasına başlanılacaq.

***"Azərbaycan"***

## Xudavəng monastırından səkkiz əsrlik freskaların aparılması böyük cinayətdir

"Ermənilər tərəfindən Xudavəng monastırından 8 əsrlik freskaların aparılması, şübhəsiz ki, böyük cinayətdir. Biz dəfələrlə həm UNESCO, həm də digər beynəlxalq təşkilatlar səviyyəsində bunu bəyan etmişik".

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında mədəniyyət naziri Anar Kərimov deyib.

Ermənilərin bu addımının vandallıq olduğunu və UNESCO-nun 1970-ci ildə qəbul etdiyi konvensiyasına zidd olduğunu söyləyən nazir deyib: "Biz bunu qətiyyətlə pisləyirik və bununla bağlı işlərimizi davam etdirəcəyik. UNESCO-ya bu haqda məlumat verilib və təşkilat tərəfindən buna hüquqi qiymətin verilməsi üzərində çalışacağıq".

## İşğaldan azad edilmiş torpaqlarımıza qayıdacaq əhali üçün məqsədli, çevik aktiv məşğulluq proqramları hazırlanır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əsas fəaliyyət istiqamətlərindən biri də erməni faşizminin işğalından azad edilmiş yurd yerlərimizə qayıdacaq əhali üçün məqsədli, çevik aktiv məşğulluq proqramlarının hazırlanmasıdır. Bu sahədə Beynəlxalq Əmək Təşkilatı (BƏT) ilə də əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur.

Bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev BƏT-in Moskva ofisinin direktoru Olqa Kulayeva ilə onlayn görüşdə bildirib.

O, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Qələbəsindən bəhs edib. İşğaldan azad edilmiş yurd yerlərimizə qayıdacaq əhalinin məşğulluq məsələlərinin həlli sahəsində geniş miqyaslı işlər aparılacağını diqqətə çatdırıb. A.Əliyev ödən dövrdə Azərbaycanla BƏT arasında müsbət əməkdaşlıq təcrübəsini qeyd edib. Nazir müavini bildirib ki, "Azərbaycan Respublikasının 2021-2025-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı" layihəsinin hazırlanmasında da BƏT-lə birgə işlərin aparılması nəzərdə tutulur.

Görüşdə qeyri-formal məşğulluğun qarşısının alınması, əmək qanunvericiliyinin təkmilləşdirilməsi işlərinin ekspert qiymətləndirilməsi sahəsində görüləcək birgə işlər qeyd edilib. Əlilliyi olan şəxslər, xüsusilə müharibə ilə əlaqədar əlilliyi müəyyən olunan şəxslərlə bağlı beynəlxalq təcrübə əsasında peşə hazırlığı kurslarının təşkili üçün xüsusiləşdirilmiş təlim proqramlarının, peşəyönümü testlərin hazırlanması, gənclərin əmək bazarına inteqrasiyasının dəstəklənməsi və s. sahələrdə gələcək əməkdaşlıq məsələlərinə dair müzakirələr aparılıb.

## Düşmənin təbii sərvətlərimizə vurduğu ziyanın qiymətləndirilməsinə İctimai Şuranın üzvləri də cəlb olunacaq

İşğaldan azad olunmuş ərazilərdə ekoloji vəziyyətin, ətraf mühitə və təbii sərvətlərə vurulmuş ziyanın qiymətləndirilməsi, bərpa planlarının dəqiqləşdirilməsi ilə bağlı məsələlərin müzakirəsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə videokonfrans formatında görüş keçirilib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə işğaldan azad olunmuş ərazilərimizdə təbiətə qarşı ekoloji cinayətlərin həyata keçirilməsi, təbii sərvətlərə vurulmuş ziyanın hesablanması, mövcud yataqların istismar vəziyyətinin qiymətləndirilməsi və bərpası istiqamətində görüləcək işlərə şura üzvlərinin cəlb olunacağı vurğulanıb.

Qarabağ bölgəsinin zəngin və füsunkar təbiətinin yenidən bərpası məsələlərində şura üzvlərinin fəal iştirakının vacibliyi qeyd olunub.

# Şuşa yolu Zəfər yoludur



**Şuşaya çəkilən yeni yol real olduğu qədər də rəmzi məna daşıyır. Çünki 30 illik zaman kəsiyini ağuşuna alıb müqəddəs Qələbəyə köklənən möhtəşəm döyüş yolunun xronologiyasını özündə ehtiva edir. Prezident zaman və məkanla uzlaşmayan, adi çərçivələrə sığmayan Şuşa səfərini özü belə qeyd etmişdir: "Səhər tezdən yola çıxmışıq. İstiqamət Şuşa şəhəridir".**

Dövlət başçısı Şuşa səfəri çərçivəsində öncə Füzuli Beynəlxalq Hava Limanının təməlini qoydu. Bununla həm də postmüharibə dövrünün iqtisadi sıçrayışına yeni təkan verildi. Hava limanının bu il istifadəyə verilməsinin nəzərdə tutulmasının Qarabağ və bütün Azərbaycan üçün böyük əhəmiyyəti var. Təməli qoyulan Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolu isə xarici qonaqların, turistlərin təyyarə limanından Şuşaya rahat gəliş-gedişini təmin edəcək.

Faşist ideologiyasının köləsinə çevrilən Ermənistan isə getdikcə xaosa uğrayır, postmüharibə dövrünün tələblərini anlamaqda çətinlik çəkərək yenə də iki əllə həmin üzdəniraq ideologiyadan yapışır. Bu baxımdan Füzulidən Şuşaya uzanan yol bizim şanlı zəfər yolumuz olmaqla yanaşı, işğalçı Ermənistanın nəyə "qadir olduğunu" sərgiləyən mənzərələrin tablosu, açıq səma altında erməni vəhşiliklərini, vandallığını ifşa edən tarix muzeyidir.

Bu yolun sonunda - Şuşa şəhərində dövlət başçısının, Ali Baş Komandan İlham Əliyevin üçrəngli bayrağımızı ucaltması isə haqqın və ədalətin təntənəsidir. Yada ruhumuza hakim kəsilən misralar düşür:

*"Şuşada sən qonduğun daşa pir deyəcəyəm,*
*Çəkəcəyəm gözümə kölgən düşən torpağı,*
*Azərbaycan bayrağı!*
*Azərbaycan bayrağı!"*

Bir xalq olaraq Qarabağın bizim üçün necə müqəddəs olduğunu qələbəmizlə sübut etdik. "Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir". Bu sözləri Prezident İlham Əliyev Şuşada hərbçilərin qarşısında çıxış edərkən dedi və əlavə etdi ki, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edir, gedən döyüşlərin sirlərini öyrənirlər.

Bu müharibədə xalqımıza, əsgərlərimizə arxa duran, güc verən Prezidentin həm də xarici KİV-ə verdiyi 30 müsahibə idi. Savaş gedərkən hamı həmin müsahibələrə baxırdı, onları oxuyurdu. Bakıda xarici müxbirlərin çox vaxt jurnalist etiketinə, qələm sahibinin əxlaqına sığmayan davranışlarına baxmayaraq, dövlət başçısının Azərbaycanın haqlı mövqeyini ciddi faktlar və güclü arqumentlərlə müdafiə etməsi xalqa, orduya, o cümlədən səngərdə döyüşən əsgərlərimizə verilən böyük qələbə ruhu idi. Həmin günlər biz hamımız Ali Baş Komandana arxalanır, ona güvənir, hər müsahibəsini informasiya cəbhəsində çalınan zəfər kimi qəbul edirdik.

Laçın yaxınlığındakı mövqelərdən birində döyüşən topçular bölümünün komandiri Rəşid Həsənbalayev deyir ki, Ali Baş Komandanın xarici müxbirlərin kürəyini yerə vurmasını hamımız diqqətlə izləyir, ondan yenilməz güc alır və aslana dönürdük: "Prezident əslində səngərdə döyüşən hər bir əsgərin haqqını müdafiə edirdi. Təsəvvür edilməsi mümkün olmayan qürur hissi keçirir, daha cəsarətlə, daha mətinliklə döyüşməyə bitib-tükənməyən güc alırdıq. Nə dərəcədə haqlı və ədalətli olduğumuza bütün varlığımızla inanırdıq. Ölüm belə bizim inamımızın qarşısında aciz idi. Bu gücü biz Ali Baş Komandanın informasiya cəbhəsindəki davamlı qələbələrindən alırdıq. Sərkərdəmizin adı mükəmməl qələbənin müəllifi kimi Azərbaycan tarixinə yazıldı".

Bəs Birinci Qarabağ müharibəsində vəziyyət necə idi? Belə bir səhnəni xatırlamaq yerinə düşərdi. 1992-ci ilin mayında Şuşa işğal ediləndə ovaxtkı hakimiyyət bunu xalqdan gizlətdi. Hətta iki güc naziri - Rəhim Qazıyev və İsgəndər Həmidov birlikdə Müdafiə Nazirliyinin binasında dedilər ki, Şuşa bizdədir. Əslində hamı bunu deyirdi. Biz, bir neçə jurnalist Şuşaya getmək üçün Ağdama yola düşdük. Xramort kəndinin ayağında Ala Yaqubun dəstəsinə gəldik ki, bizə Şuşaya getməyə kömək etsin. O isə soruşdu: "Kim sizə deyir ki, Şuşa bizdədir?"

Ovaxtkı ruh düşkünlüyü, məğlubiyyət milli faciə səviyyəsində idi. Bu mizilsiz faciənin və məğlubiyyətin günahkarı ovaxtkı səriştəsiz hakimiyyət idi. Onlar uduzdular və qaçıb gizləndilər. İlham Əliyev isə qalib ordunun Ali Baş Komandanı kimi Şuşaya qədər bayraqları ucalda-ucalda gəldi: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın".

Biz 30 illik atəşkəsdən sonra 44 günlük şanlı döyüşlərimizi XXI əsrin hərb tarixinə dünyanı heyran qoyan səhifə kimi həkk etdik. Ali Baş Komandanın sözləridir: "Müharibələrdə hücumlar olur, geriyə çəkilmə olur, manevrlər olur, biz isə hər gün qabağa gedirdik. Hər həftə onlarla yaşayış məntəqəsini işğalçılardan azad edirdik. Nəticədə düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik. Onları məcbur etdik və cəmi 20 gün ərzində Ağdam, Laçın və Kəlbəcər rayonlarından qoşunlarını çıxardılar, rədd oldular bizim torpaqlarımızdan və biz qayıtmışıq".

İndi Azərbaycan bütün dağıdılmış ərazilərin bərpası üçün nəhəng quruculuq işlərinə start verib. Məğlub olan, ordusu darmadağın edilən işğalçı Ermənistanın siyasi elitası isə yenidən revanş eşqinə düşüb və sıfırdan yeni işğala başlamaq istəyir. Amma nə ilə? Övladları özgə torpağında ölən anaların naləsi, yoxsa, bir-birini ittiham etməkdən zövq alan siyasi partiyaların çığırtıları ilə? Məqsəd anlaşılmır, məramlar qaranlıqdır. Bu qaranlıqda görünən odur ki, Ermənistan bölgədə müharibəni körükləməkdən savayı yol görmür.

Baxın, iki dövlət arasında ən böyük fərq də elə budur - onların və bizim tutduğumuz yollar ayrıdır. Bunu isə bütün dünya görməli, nəticə çıxarmalı və qiymət verməlidir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Bir alimin manifesti

## İlk dəfə parta arxasında 17 yaşında oturan Gülməmməd Məmmədov indi Laçına ABŞ təhsilli, ADA-nın dosenti kimi dönür





◆ Qarabağ söhbətləri

**Körpə qızı qucağında ucsuz-bucaqsız bir çəmənliklə irəliləyirdi. Haradansa qartalların qıyı, sıldırım qayalardan çağlayan şəlalələrin şırıltısı gəlirdi. Ətrafı qantəpər, gülxətmi, kəklikotunun bihuşedici qoxusu bürümüşdü...**

**Uzaqda, dağların göylərlə baş-başa çatdığı yerdə isə göy qurşağının altında dayanmış balaca bir oğlan gülərək ona əl edirdi...**

**Bayaqdan röyada gördüyü bu tanış mənzərələrin hara, həmin doğma üzün kimə məxsus olduğunu hafizəsində ələk-vələk edir, xatırlamağa çalışırdı...**

**Daha bilmirdi ki, bu balaca oğlan elə onun özü, düz 28 il əvvəl Laçında qoyub gəldiyi uşaqlığıdır...**

O, "Uşaqlığımı ermənilər əlimdən aldı", - deyə boğazında düyünlənən yarımçıq bir cümləylə ürəklərdə kədərin, qəmin, qəzəb hissinin bir-birini izlədiyi yanğıya səbəb oldu...

Minlərlə qaçqın, köçkün uşağın taleyi gözlərimizdə canlandı, o ağrı-acını qəlbimizlə hiss etdik...

O köç karvanlarına qoşulub, yardım növbələrində gözlədik, gözlərimiz boş teknələrə dikildi, oyuncağımız qamış evlərdən sökülən qarğı atlar oldu, əşyasız komaların, çadırların, vaqonların bir küncündə xısın-xısın ağladıq...

Xəyallarımız yarımçıq qırıldı, uşaqlıq şəkillərimiz yanıb külə döndü, dağ kimi atalar əridi, analar qocaldı gözümüzün qarşısında, bir andaca ağırlıq çökdü çiyinlərimizə, uşaq ola bilmədik, dərd bizi böyütdü...

❖❖❖

O, çox zaman filmlərdən, bədii əsərlərdən aşina olduğumuz çətin, mümkünsüz görünən bir həyat hekayəsi yaşadı. Qəlbindəki istəklə dərsliyi, müəllimi, məktəbi olmadan elm yolunu pillə-pillə qət edib, ən ali mərtəbəyə, alimliyə qədər yüksəlməyi bacardı...

Bütün bunlara isə təkbaşına, heç bir kömək, dəstək görmədən məhz öz şəxsi əzmi sayəsində nail oldu. Tale yolu sınaqlarla dolu olsa da, uğur yazısına özü imza atdı...

"Belə-belə işlər" layihəsindən tanıdıq onu. Cəmi 13 dəqiqəlik bir müsahibə ilə insan iradəsinin nəyə qadir olması, əsl vətənpərvərlik barədə açıq dərsini dinlədik...



1992-ci ildə Laçın rayonunun Şeylanlı kəndindən məcburi köçkün düşmüş, ABŞ-ın Sirakuz Universitetində fizika üzrə fəlsəfə doktoru elmi dərəcəsi alan və hazırda ADA Universitetinin dosenti, eyni zamanda "Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyinin sədr müavini 36 yaşlı Gülməmməd Məmmədovun hər anına bir həyat sığdırdığı ömür səhifələrini vərəqlədik...

Amma, bu müsahibənin dərc olunacağına sayılı günlər qalmış, İlahi möcüzə adlandıra biləcəyimiz və təkcə Gülməmməd müəllimin deyil, bütün məcburi köçkünlərimizin həyatını bir andaca dəyişdirən qələbə müjdəsini aldıq.

Əslində, başdan-başa vətən həsrətinə, ağrı-acısına köklənmiş yazı, Laçının azadlığa qovuşma xəbəri ilə xoşbəxtlik zirvəsinə ucalan və "Qarabağ söhbətləri"ndə qanadlanan həyat hekayəsinə çevrildi...

Amma hələ 2020-ci ilə qədər Laçınlı, Laçınsız çox acılı-şirinli günlər, çox məşəqqətli anlar yaşanmışdı...

### Orada bir kənd var...

Bulaq sularının birləşərək yaratdığı zümzüməli çayın güneyi kiçik bir kənd, quzeyi isə qəbiristanlıq idi. Dağların döşündə yuva salmış bu kəndin qədim sakinləri yayda Camalyurdu yaylağına köçər, illər əvvəl torpağın təki qazılaraq üzəri Qırmızı palıdla və ot örtüklü torpaqla bağlanmış ulu babalarından qalma damlarda yaşayardılar. Elə balaca Gülməmməd də 5 qardaşı və 3 bacısı ilə bu cür nağıl yurdların birində böyüyürdü...

Çoban tütəyinin səsi ilə ala-qaranlıqda oyanıb quzuları da qatırdı qabağına və üz tuturdu ucsuz-bucaqsız çəmənliklərə. Bəzən məğrur qartalların yuva qurduğu Ağ qayanın sıldırımlarına dırmaşır, qürub çağı Günəş şəfəqlərinin dağların başını qıpqırmızı boyamasına tamaşa edir, bəzən isə saatlarla zülmət gecənin bağrında bərq vuran ulduzların necə əlçatmaz, kainatın necə sonsuz, sirli olmasına baxıb heyrətlənirdi...

Təbiət son baharını yaşayanda isə el köçü çayın sahilindəki isti binələrə üz tutur, məktəb yaşlılar isə kəndə dönürdü...

Nəhayət, o gün çatmışdı və balaca Gülməmmədin də ilk dərs günüydü...

Elə açıq havadaca əlifbanın sehrini, "ana", "vətən", kəlmələrinin qüdrətini ruhuna, qanına hopdurmuş, təbaşirə bu-



laşmış balaca barmaqları ilə rəqəmlərin sirrini öyrənməyə çalışmışdı...

Bir daha dərsə getməyəcəyindən, parta arxasında oturmayacağından və sınaqlarla dolu ən ağır həyat məktəbinin astanasında olduğundan xəbərsiz...

Cəmi bir neçə aydan sonra hər aşırımını, gədiyini, cığırını beyninə, qəlbinə, ürəyinə həkk etdiyi ana yurduna həsrət qalacağından xəbərsiz...

### Sonuncu yaz...

*Ömrünün cəmi 8 ilini doğma diyarında yaşamaq nəsibi olmuşdu. Amma xoşbəxt uşaqlıq günlərini dəfn edib gəldiyi yurdunu qarış-qarış hafizəsinə həkk etmişdi...*

- Ermənilər Laçın dəhlizini bağlayanda biz Ağcabədidə qış yataqlarında olduğumuz üçün sonuncu yazı Laçına qayıda bilmədik. Amma qohumlarımızın hamısı orada qalmışdı. Düşünürəm ki, əksəriyyəti azyaşlı uşaqlardan ibarət 11 nəfərlik ailəmiz həmin vaxt Laçında olsaydı, oradan sağ-salamat çıxa bilməzdik. Sadəcə təsadüf nəticəsində biz o faciələrdən qurtulmuş olduq, amma oradakı insanların hamısı faciələr yaşadı, böyük çətinliklərlə Laçından çıxa bildilər. O zaman xalamın yoldaşı qonşu kəndin uşaqlarını su maşınının çəninə yığaraq düz Füzuliyə qədər o vəziyyətdə gətirmişdi...

Hələ 1988-ci il hadisələri zamanından ermənilərin bizə qarşı törətdikləri vəhşiliklər vahiməli şəkildə həkk olub uşaq yaddaşıma. Yadımdadır, Ağcabədiyə gedəndə, yaxud geri qayıdanda Xankəndinin içərisində erməni cavanları bizə daş atır, hədələyir, kiçik bir bəhanə axtarırdılar ki, dalaşsınlar. Buna görə də çalışırdıq ki, daha uzaq olsa da, Qubadlı yolu ilə gedib-gələk... Xocalı hadisələrindən sonra isə bu qorxumuz dəhşətlə əvəz olunmuşdu...

Birdən-birə yurdsuz-yuvasız, doğmaları pərən-pərən düşmüş bir elə, məcburi köçkünə çevrilmişdik. Artıq biz mənəvi çətinliklər, şəhid xəbərlərinin qapıları döydüyü, xəstəliklərin tüğyan etdiyi bir zamanın uşaqları idik. Oynamaq, gülmək, əylənmək yadımızdan çıxmışdı...

### Zəqqutun gerçəklər, kitab vərəqindən çatılan ocaqlar və oxumaq yanğısı...

*Yaşadıqları qış yatağı yayda ilan mələyən qızmar səhraydı, qışda isə şaxtası ilikləri donduran buzxana...*

*Qamışdan koma düzəldib, orada qalırdılar. Çörək bir yana, yoxluğundan əziyyət çəkdikləri ən vacib şey içməli su idi. 10 kilometrə yaxın məsafə qət edib oradakı artezian quyusundan su gətirərdilər. Burada yalnız içməyə və təsərrüfata yararlı olmayan acı sular vardı. Sovet dönəmində 1990-cı ilə qədər Taxtakörpü ərazisində Kür çayından motorlarla kanallara yararlı su verilərdi. Həmin ildən daha o motorlar üçün dizel yanacağı verilmədiyindən həmişə su ilə aşıb-*



*daşan kanallar qurumuşdu. İldə bir-iki dəfə 10-15 gün kanala su vurulardı, o da Gülməmmədgilin obasına çatana qədər yanacaq bitərdi. Atasının saldığı meşə zolağı tamamilə qurumuşdu. Sağılan heyvanlar da quraqlıqda bitən yağtikan, biyan otları ilə qidalandıqları üçün südləri zəhər dadırdı...*

- Ürəyim ağrıyırdı. Düşünürdüm ki, biz niyə belə yaşamalıyıq? Və anlayırdım ki, yaşadığımız çətin vəziyyətdən yalnız oxumaqla, təhsil almaqla çıxa bilərəm. Amma bilmirdim ki, bu yola necə başlayım...

Çünki məktəbimiz formal şəkildə, sənəd üzərində idi. Heç müəllimlərimiz də yox idi, hərbi xidmətə, döyüşə yollanmışdılar...

Buna görə də özüm müstəqil şəkildə oxuyub öyrənməli idim. Bizə müxtəlif kitablar yardım olunardı, isindiyimiz ocağı həmin kitabların vərəqləri ilə qalayardıq. Aralarından diqqətimi çəkən, içərisində televiziya, radio, elektrik naqillərinin şəkilləri olan fizika kitablarını isə hər zaman həvəslə vərəqləyərdim. Ta uşaqlıqdan beynimdə dünya ilə bağlı o qədər suallar var idi ki, anlamağa, cavab tapmağa çalışırdım. Bəlkə də fizik olmasaydım, ağlımı itirə bilərdim. Bu elmi ona görə sevmişəm ki, onun sayəsində dünyaya faydalı olmağın mümkünlüyünə və bunu mənim də edə biləcəyimə inanmışam...

14 yaşımda 1-ci sinfin riyaziyyat kitabını götürüb, 5-ci sinfə çatanda ona Azərbaycan dilini, ədəbiyyatını əlavə edib, müstəqil şəkildə hazırlaşmağa başladım.

Böyük qardaşım da bu üsulla hazırlaşaraq Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinə qəbul olmuşdu. Dərslə bağlı yaranan suallarımı qeyd edib, o, semestr tətilinə gələndə müzakirə edirdim...

Çətinliklərimdən biri də üstündə məsələ-misal həll etmək üçün kağız çatışmazlığı idi. Riyaziyyat, həndəsə, cəbr, fizika kitablarında və digər dəstəkləyici vəsaitlərdəki bütün məsələ-misalları yazılı həll edirdim, buna da kağız çatmırdı. Ona görə hər dəfə Ağcabədi bazarına gedəndə oradan ərzaq mağazalarında kartondan olan boş qutuları yığıb gətirərdik ki, üstündə yazım. Böyük qardaşım hazırlaşanda da eyni problemi bu cür həll edirdik...

Kiçik və bomboz dünyamı radiodakı uşaq verilişlərinin, bədii ədəbiyyatların sayəsində genişləndirməyə və rəngləndirməyə çalışırdım. Müxtəlif formada antenalar düzəldib o zaman yalnız Bakıda yayımlanan radio kanallarını dinləyirdim. Uşaq verilişlərinə qulaq asır, nor-



malın necə olduğunu təsəvvür etməyə çalışırdım. Məsələn, uşaqlar deyirdi ki, hansısa bədii kitabı oxuyub, musiqiyə qulaq asıb, piano çala bilir... Artıq anlayırdım ki, insanın formalaşması üçün tək texniki sahələr kifayət deyil və buna görə qiraət, rəsm, musiqi, idman və digər bu kimi əlavə məşğuliyyətlərin də olmalıdır. Mən heç zaman bunu valideynlərimə söyləmirdim, bilirdim ki, onların bu istəkləri qarşılamağa imkanları yoxdur... Yaşadığım mühitdə bu anlayışların olması mümkün deyildi...

### Bütün Ağcabədiyə xəbər yayıldı ki...

*Beləcə aylar dolanır, illər keçirdi və bir gün... Bütün Ağcabədiyə xəbər yayıldı ki, Taxtakörpü qışlağından bir oğlan məktəb, müəllim olmadan özü hazırlaşaraq rayon üzrə ən yüksək balla BDU-nun Fizika fakültəsinə qəbul olub. Gülməmməd və ailəsini isə sevinclə yanaşı, onun harada qalacağı, maddi ehtiyaclarının necə ödəniləcəyi ilə bağlı qayğılar da bürümüşdü, amma təhsil alana dəstək olmaq bu ailənin təməl dəyərlərindən idi...*

- Kəndimiz ucqar dağ kəndi olsa da, orada cahillik olmayıb, hər zaman təhsilə, oxumağa böyük önəm veriblər. Məsələn, XX əsrin əvvəllərində belə kəndlərimizdən işıqlı insanlar çıxırdı. Fəxr edəcəyimiz şəxsiyyətlərdən Nurməmməd bəy Adilxan bəy oğlu AXC-nin, Dağlılar Respublikasının maarif naziri, Xosrov bəy Sultanov isə Qarabağ və Zəngəzur mahalının qubernatoru, müdafiə naziri olub. Bunlar barədə hər zaman atam da bizə danışırdı və təhsilin mühüm olduğunu hələ uşaqlıqdan dərk edirdik.

Babamın riyazi biliyi olduğuna görə kəndin hesabdarı imiş, amma təəssüf ki, müharibəyə gedib qayıtmamışdı və atamgil yetim böyümüşdü.

Elə atam da nənəmin və anamın dəstəyi ilə 40 yaşında Ağdam Kənd təsərrüfatı Texnikumunda aqronomluq oxumuşdu. Həmin illərdə azyaşlı uşaqlara baxmaq, təsərrüfatın bütün yükünü çəkmək isə böyüklü-kiçikli bütün ailənin öhdəsinə düşmüşdü...

### Laçından sonra ilk dəfə parta arxasına 17 yaşımda əyləşdim...

- Laçından sonra ilk dəfə parta arxasına 17 yaşımda universitetdə əyləşdim. Özümü çox xırda hiss etmişdim orada. İnanmağım gəlməmişdi ki, mən həqiqətənmi buna nail olmuşam?!



Bakıda yaşamağım üçün bir yer lazım idi, ailənin maddi durumu kirayə ev tutmağa imkan vermirdi, düşündük və qardaşımla Şıxov daş karxanasına getdik. Oradan pulsuz olaraq lazımsız daşlardan yığdıq. Badamdarda zibilliyin ortasında bir otaq tikdik, ilk ili əşyasız, suvaqsız, daha sonra isə hissə-hissə təmir edərək, baş verən yanğınadək iki il yarım orada yaşadım. Yanğından sonra 2 il ərzində yenidən evi təmir edənədək bir müddət evin yaxınlığında həmin vaxt istifadəsiz olan bir vaqonda, daha sonra isə ailəli və bir övladı olan böyük qardaşımın təkotaqlı evinin üç metrlik zirzəmisində qalmalı oldum. Tələbə olduğum vaxt rayonda üç qardaşım, üç bacım və valideynlərim qalmışdı. Onların ailə büdcəsindən hər ay yığdıqları minimal məbləğlə dolanırdım. III və IV kursda bir abituriyentə də dərs verir, maddi ehtiyacımı ödəməyə çalışırdım. Bu pul faktiki yolpulu, minimal qida və dəftər-qələmə güclə çatırdı. Rayonda qalan ailəmin də vəziyyəti maddi olaraq çox çətin idi. Soyuq aylarda geyinməyə isti paltar almağım üçün onlar, sözün əsl mənasında, səfərbər olub pul yığırdılar. O qədər olurdu ki, ayaqqabım cırılanda özüm tikirdim... Mən III kursda oxuyanda rayonda nəmişlikdən, soyuqdan, zəif qidalanmadan ailə üzvlərimin demək olar hamısı ağır xəstəlik keçirdi. Balaca qardaşımın, bir bacımın vəziyyəti isə daha ağır idi. Nəyimiz vardı həkimlərə, dərmana verirdilər. Çox dəhşətli və ümidsiz vaxtlar idi. Xatırlayıram, ayın başı çatmışdı, qardaşım mənə pul göndərə bilməmişdi. Demək olar ki, heç bir qida qəbul etmədən keçinmiş, universitetə piyada gedib-gəlmişdim. Utandığım, üzüm gəlmədiyi üçün də heç kəsdən kömək istəmirdim. Nəhayət, 3 gündən sonra qardaşım rayondan gələn taksilərdən biri vasitəsilə mənə pul göndərmişdi...

Digər tələbələr kimi nə geyinə, nə gəzə, nə də əylənə bilirdim. Bunlar mənə çox yad olub. Amma nəfsimi həmişə imkanlara uyğun cilovlamışam. Atam bizi gözü tox böyüdüb. Ona görə maddiyyat baxımından demək olar heç nəyimiz olmasa da, onun yoxluğunu hiss etməmişik. İdealist olmuşuq. Mənəviyyata, ali insani dəyərlərə köklənmişik. Bəlkə də hər şey torpaqlarımızın yoxluğunun kölgəsində qalıbmış, bilmirəm...

### Təşəkkür məktubu və ağlayan ata...

*Gülməmməd Məmmədov ali məktəbdə də istedadı və biliyi ilə seçilənlərdən olur. Hələ universitetin ikinci semestrində Ulu Öndər Heydər Əliyevin 80 illik yubileyinə həsr olunmuş ali məktəb tələbələrinin İX Respublika Olimpiadasında fizika fənni üzrə İ yerə layiq görülür. 2005-ci ildə Bakı Dövlət Universitetinin bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirir. Məzun günü yüksək təhsil göstəricilərinə və ictimai fəallığına görə Fizika fakültəsinin ən yaxşı tələbəsi kimi fəxri fərmanla təltif edilir, BDU-dan valideynlərinə təşəkkür məktubu da göndərilir...*

- Çətinliklərə rəğmən yoluma davam edirdim. Ətrafımdakılar o yolun sonunda işıq görmürdü, amma mənə elə gəlirdi ki, var. Hər şeyi ən yaxşı formada öyrənib insanlıq üçün faydalı nə isə etmək istəyirdim və bunun fizika ilə mümkün oldu-



ğuna əmin idim. Yəni idealımı o qədər yüksəyə qoymuşdum. Elə onun sayəsində də inanılmaz maneələr keçə bilmişəm. Düşdüyüm mühitlərdə nəzərəçarpmayan bir zərrə olmuşam, amma özümə demişəm ki, mütləq bu mühitdə parlamalıyam. Bu isə eqoizm, şöhrət məsələsi deyildi...

Hələ tələbəykən - 3-cü kursda Rusiyanın Nəzəri və Təcrübi Fizika İnstitutunun (ITEP) professoru Emil Əhmədovun AMEA-nın Fizika İnstitutunda Landaunun nəzəri fizika kursu üzrə keçirdiyi seminarlarda iştirak etdim. Deyərdim ki, bu mənim həyatımda bir dönüş nöqtəsi oldu. Professor koordinatlarımı götürdü. Dedi ki, ingilis dilini öyrən, rəy yazım, get xaricdə oxu. Əlaçı təqaüdümü verərək 9 ay bir ingilis dili müəllimi ilə hazırlaşdım. İtaliyada Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin inkişaf etməkdə olan ölkələrdən seçdiyi on tələbədən biri kimi birillik pre-doktoral təhsil proqramına dəvət aldım. 2007-ci ildə isə ABŞ-ın Nyu York ştatında yerləşən Sirakuz Universitetinə təqaüd qazandım...

İtaliyaya təhsil üçün getdiyim zaman heç ailəm də bilmirdi ki, hara gedirəm. Sadəcə olaraq sənədlərimi yığıb bir zərfə qoydum və gizlincə qardaşımın yoldaşına verdim. Dedim bunu saxlayarsınız, əgər məndən bir xəbər olmasa, Xarici İşlər Nazirliyinə verərsiniz, onlar maraqlanar. Məni yola salmaq üçün atam Bakıya gəlmişdi, yalnız o zaman ilk dəfə idi ki, onun ağladığını görürdüm...

### Vətənə dönüş bileti...

*10 illik bir zaman dilimində ABŞ-da yüksək pedaqoji fəaliyyətlə yanaşı, Azərbaycan mədəniyyətini, həmçinin ermənilərin ölkəmizə qarşı təcavüzünü əks etdirən təbliğat xarakterli tədbirlər də keçirərək, orada "Xocalıya ədalət!" kampaniyasında fəal iştirak edir. Dəfələrlə Sirakuz şəhərinin yüksək vəzifəli şəxsləri, Konqres təmsilçiləri ilə görüşlər keçirərək Azərbaycan həqiqətlərini onlara çatdırır...*

*Amma hər zaman da fikri, düşüncəsi, Azərbaycanda olub. Və elə bu səbəbdən də oradakı dostlarına, elmi rəhbərinə belə demədən 2016-cı ilin bir yay günündə qəti qərarını verərək vətənə dönüş bileti alır...*

- Dünyanın ən nüfuzlu universitetlərində oxumuşam, işləmişəm, tanınmış alimlərlə ünsiyyətdə olmuş, bəziləri ilə birlikdə çalışmışam. İstəsəydim orada fəaliyyətimi davam etdirə bilərdim. Ancaq Vətənə bağlılığım mənim doğma ölkəmə qayıtmağıma səbəb oldu. Düşünürəm ki, öz ölkəmdə daha çox lazımam.

Fəaliyyətimi tək tədqiqat və tədrislə məhdudlaşdırmaq istəmirəm. Azərbaycanda uğurla gedən təhsil islahatlarına öz töhfəmi vermək, bu sahənin inkişafında yaxından iştirak etmək, illər ərzində qazandığım təcrübəni həmkarlarımla paylaşmaq istəyirəm...

Heç zaman arzu etmərəm ki, hansısa bir uşaq mənim yaşadıqlarımı yaşasın. Mənim kimi minlərlə məcburi köçkün uşağının xoşbəxt böyümək imkanı, haqqı əlindən alınıb...

### Gedib Camalyurdundakı çırağımızı yandıracam

*Müsahibəmiz bu cür bədbin tonlarla bitirdi...*

*Amma sən demə, milyonlarla qaçqınımızın, köçkünümüzün haqq dualarının yerinə yetməsinə çox az, sayılı günlər qalıbmış...*

*Qarabağımıza qovuşmağımız an məsələsi imiş...*

*Və Laçın həsrətli bu yazının sonunda Laçının azadlığının, 28 ildən sonra Laçına qovuşmağın necə sevincli, qürurlu, fəxarətli bir hiss olduğunu bölüşmək kimi xoşbəxt bir qisməti də var imiş Gülməmməd müəllimin...*

- Sözlərlə ifadə edilə bilməyəcək hisslər keçirirəm. Vətən müharibəmizin qələbə xəbərindən çox az müddət keçməsinə baxmayaraq, hələ də bunun real olduğuna özümü inandırmağa çalışıram. Yuxu kimi bir hissdir. Görünür kəndimizi gedib öz gözlərimlə görənədək bu belə olacaq. Hər gün kəndimizə nə vaxt və ilk olaraq haralara gedəcəyimi düşünürəm. Peyk şəkillərindən görə bildiyim üçün kənddəki evimiz talan edilərək tamamən dağıdılıb. Amma Camalyurdundakı damımızın üstü otla örtüldüyündən peyk şəkillərindən necə vəziyyətdə olduğunu ayırd etmək olmur. Ümidliyəm ki, həm ot örtüyünə görə, həm də ora maşın yolu olmadığından diqqətdən kənar qalıb və ermənilər onu dağıtmayıb. Ona görə ilk getmək istədiyim yerlərdən biri elə uşaqlıq xatirələrimdə ən çox qalmış Camalyurdundakı damımızdır.

Oranı tərk edərkən bir gün geri dönəcəyimiz ümidi ilə qardaşım çırağımızın şüşəsini təmizləyərək damın taxçasına



qoyubmuş. Gedib onu yenidən yandırmaq istəyirəm. O çırağın yanması, sanki mənə dədə-baba torpaqlarımızın həsrəti ilə itirdiyimiz illəri, yarım qalan xoşbəxt uşaqlığımı geri verəcək. Bu qələbə yalnız torpaqlarımızın bütövlüyünü deyil, taleyi ikiyə bölünmüş minlərlə məcburi köçkünün həyatda itirilmiş ümidlərinin yenidən qazanılmasını, bütünləşmiş həyatlarına geri dönüşünü təmin edəcək.



Bu hissləri bizə yaşatdığı üçün Ali Baş Komandan cənab İlham Əliyevə və döyüş meydanında böyük qəhrəmanlıq göstərmiş şanlı Ordumuzun hər bir əsgər və zabitinə sonsuz minnətdaram. Vətən uğrunda canından keçmiş şəhidlərimizin ruhları qarşısında baş əyir, onlara Allahdan rəhmət, yaralılarımıza isə şəfalar diləyirəm.

*Elə bu da haqqın və ədalətin zəfəridir ki, düz 28 il əvvəl uşaqlığı əlindən alınaraq yurdundan didərgin salınan məğlub Azərbaycanın balaca vətəndaşı Gülməmməd indi ana Vətəni Laçına qüdrətli və qalib Azərbaycanın fəxarətli alimi kimi qayıdır...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Şəhid mayor Namiq Əhmədov təkcə doğmalarının yox, həm də Vətənin və xalqın övladıdır

**Doğma yurdunu, Vətənini canından əziz tutan və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü üçün canını fəda edən igid oğullarımızdan biri də Qazax rayonunun Yuxarı Salahlı kəndində doğulmuş mayor Əhmədov Namiq Hajan oğludur.**



Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunan Namiq Əhmədovun xatirəsi həmyerliləri tərəfindən həmişə əziz tutulur. Dövlətin qayğısını hər an hiss edən şəhidimizin ailəsinə rayon rəhbərliyi tərəfindən də diqqət və qayğı göstərilir.

Bu günlər rayon rəhbərliyi bir qrup ictimaiyyət nümayəndəsi ilə birlikdə növbəti dəfə şəhidin ailəsi ilə görüşmüşdür. Ziyarətçilər əvvəlcə şəhidin adına yaradılmış xatirə otağında onun şəxsi əşyaları, təltif edildiyi orden və medallarla, eləcə də şəkillərindən ibarət guşə ilə tanış olmuşlar. Prezident tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışan rayon rəhbərliyi qəhrəman şəhidimizin ölümündən sonra ordenlə təltif olunmasını Namiq Əhmədovun timsalında şəhidlərimizə, eləcə də Qazax şəhidlərinə verilən dəyərin daha bir bariz nümunəsi olduğunu diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, Vətənin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin, o cümlədən Namiq Əhmədovun qanı yerdə qalmamış, İkinci Qarabağ müharibəsində, haqq savaşında düşmənə layiqli cavab verilmişdir.

Övladı ilə hər zaman fəxr etdiyini bildirən şəhid atası Hajan Əhmədov Vətən uğrunda canından keçən bütün oğullara Allahdan rəhmət diləyərək bildirmişdir ki, Namiq hər zaman xalqın qəlbindədir. Onun xatirəsini əbədiləşdirmək üçün ayrıca otaq yaratmaqda da əsas məqsədi evini ziyarət edən qonaqlara onun döyüş yolunu, həyatını daha yaxından tanıtmaqdır. Bu otaq şəhidin ailəsi üçün təsəlli yeri olmaqla yanaşı, həm də onun ruhunun cismən də olsa aramızda olduğunu göstərməkdir.

Qeyd edək ki, şəhid mayor Əhmədov Namiq Hajan oğlu 8 noyabr 1984-cü ildə anadan olmuşdur. Namiq 2002-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olmuş, 2006-cı ildə həmin məktəbi bitirərək artilleriya ixtisasına yiyələnmişdir. 2007-ci ildə Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində zabit kursunda oxuduqdan sonra Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində zabit kimi xidmətə başlamışdır. O, Aprel döyüşlərində fəal iştirak etdiyinə görə Fəxri fərmanla təltif olunmuş, vaxtından əvvəl mayor rütbəsi alaraq "N" saylı hərbi hissənin komandiri vəzifəsinə irəli çəkilmişdir. Mayor Namiq Əhmədov 2020-ci il iyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən şiddətli döyüşlər zamanı düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# İki qardaş - iki əsgər

**Mərufov Şəhriyar Xanlar oğlu 1995-ci ildə Ojakəran kəndində anadan olmuşdur. 2014-cü ildə həqiqi hərbi xidmətə yollanan Şəhriyar 2015-ci ildən Daxili Qoşunların xüsusi təyinatlı dəstəsində müddətdən artıq hərbi qulluqçu kimi xidmətini davam etdirmişdir.**



1993-cü il təvəllüdlü qardaşı Ağalar Mərufov da həqiqi hərbi xidməti başa vurduqdan sonra 2018-ci ildən Daxili Qoşunların xüsusi təyinatlı dəstəsində müddətdən artıq hərbi qulluqda qalmışdır.

Vətən müharibəsi başlanan ilk gündən hər iki qardaş Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və Ermənistanın təxribatlarının qarşısını almaq üçün əks-hücum əməliyyatlarında iştirak etmiş, bir çox yaşayış məntəqələrimizin düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişlər. Şəhriyar Şuşa şəhəri uğrunda döyüşlərdə ağır yaralanmış, Ağalar isə sonadək döyüşlərdə iştirak etmişdir.

Bu günlər Astara rayon rəhbərliyi Mərufovlar ailəsini ziyarət etmişdir. Qəhrəman döyüşçülərin atası Xanlar Mərufov və anası Rəşxəndə xanım oğlanlarının tarixi qələbənin qazanılmasındakı xidmətlərindən qürur duyduqlarını bildirmiş, övladlarına göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq etmişlər.

Mərufovlar ailəsinə ləyaqətli, vətənpərvər övladlar böyütdüyünə görə minnətdarlıq edən rayon rəhbərliyi igid döyüşçü Şəhriyara tezliklə sağlamlığına qovuşmağı arzulamışdır. Qeyd edilmişdir ki, 44 günlük azadlıq savaşında ordumuz onlar kimi oğulların sayəsində tarixi qələbə qazanmışdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Vətən müharibəsində iki dəfə yaralanan qazi

**2020-ci il sentyabr ayının 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Silahlı Qüvvələrimizin şəxsi heyətinin tərkibində tovuzlu hərbi qulluqçular da döyüş əməliyyatlarında fəal iştirak etmiş və hərbi qulluq vəzifələrini şərəflə yerinə yetirmişlər.**



Rayonun Aşağı Mülkülü kənd sakini Abbasov Ülvi Alik oğlu belə döyüşlərdə iki dəfə yaralanmışdır. O, 2000-ci ildə anadan olmuş, kənd tam orta məktəbində təhsil almış, 2018-ci ilin oktyabr ayından 2020-ci ilin aprel ayınadək Azərbaycan Ordusu sıralarında həqiqi hərbi xidmətdə olmuş və hərbi biliklərə mükəmməl yiyələnmişdir. Tovuz döyüşləri zamanı könüllü olaraq ordu sıralarına getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlər Xidmətinin rayon şöbəsinə müraciət edən Ülvi 2020-ci ilin sentyabr ayında hərbi xidmətə yollanmışdır. O, Ağdərə istiqamətində Suqovuşan və Talış kəndlərinin işğaldan azad olunması əməliyyatlarında iştirak etmişdir.

Ülvi Abbasov döyüşlərin birində yaralanmasına baxmayaraq, qısa müddətdə sağlamlığını bərpa edərək yenidən döyüşlərə qatılmışdır. O, Suqovuşan uğrunda gedən döyüşlərdə təkrar yaralanmış və hərbi hospitalda müalicə olunmuşdur. Hazırda ev şəraitində müalicəsini davam etdirir.

Bu günlər rayon rəhbərliyi Aşağı Mülkülü kəndində Ülvi Abbasovu ziyarət etmişdir. Qazi keçdiyi döyüş yolundan, orduda olan böyük ruh yüksəkliyindən, vətənpərvərlik hisslərindən, Ali Baş Komandana sonsuz inamdan danışmış, Vətən müharibəsində sağlamlığını qismən itirmiş döyüşçülərə göstərilən dövlət qayğısından razılığını bildirmişdir.

Rayon rəhbərliyi Ülvi Abbasovun sağlamlıq durumu və ailənin qayğıları ilə maraqlanmışdır. Rəşadətli Azərbaycan Ordusunun şəxsi heyətinin tərkibində hərbi qulluq vəzifələrini şərəflə yerinə yetirmiş qaziyə bundan sonra da diqqət yetiriləcəyi bildirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Ali ehtiramın ünvanı

**Dövlətimiz və xalqımız Vətənin azadlığı uğrunda tərəddüd etmədən özlərini qurban verən, şəhid olub əbədiyyətə qovuşan qəhrəman oğulların xatirəsini hər zaman əziz tutur, onların müqəddəs ruhunu and yeri hesab edir.**





Ölkəmizin hər yerində olduğu kimi, energetiklər şəhəri Mingəçevirdə də şəhid adı ali hörmət və ehtiram ünvanına çevrilib. Bu günlər şəhərin Şəhidlər xiyabanında geniş abadlıq işləri görülüb, səliqə-sahman yaradılıb.

Xiyabanda canını doğma Vətənin azadlığına fəda edən 50 mingəçevirli gənc dəfn edilib. Mingəçevir Şəhər Icra Hakimiyyəti şəhid ailələrinə xüsusi qayğı və diqqətə hər zaman böyük önəm verir, davamlı olaraq onların problemləri ilə maraqlanır. Şəhid qəbirlərinin üstünün götürülməsi, ətrafının abadlaşdırılması şəhər rəhbərliyinin diqqət mərkəzindədir. 20 Yanvar - Ümumxalq Hüzn Gününə qədər bütün işləri başa çatdırmaq üçün bu müqəddəs məkanda hər gün iməcilik keçirilib, təmizlik və abadlıq işləri aparılıb.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# "Azərişıq" ASC-dən daha bir yenilik

**"Azərişıq" Açıq Səhimdar Cəmiyyəti yeni ildən daha bir uğurlu layihəyə start verdi.**

İnformasiya Texnologiyalarının Paylayıcı Şəbəkələrdə tətbiqi sahəsində dünyada müasir trendlərdən olan 3D - mobile mapping texnologiyası elektrik şəbəkələrinin istismarı, qeydiyyatı, analizi və planlanmasının daha dəqiq və çevik həyata keçirilməsi üçün artıq istifadəyə verilib.

Yeni texnologiyanın tətbiqi ilə şəbəkədə mövcud olan cihaz və avadanlıqların yerləşdiyi ərazinin 3D - multi-direktoriya formatında scan olunması həyata keçirilməklə, müxtəlifgərginlikli elektrik veriliş xətlərinin, transformatorların, dayaqların, sayğaclar və onlara gədər olan ötürücü naqillərin yerləşdiyi ərazinin virtual xəritəsi relyef xüsusiyyətləri və GPS koordinatlarına uyğun yüksək dəqiqliklə tərtib edilir. Bu texnologiya sayəsində mövcud şəbəkədə olan elementlər və onların yerləşdiyi ərazi haqqında müfəssəl məlumatlar Ağıllı Şəbəkələrin İdarəetmə Mərkəzinə ötürülərək, əraziyə getmədən 3D - smart xəritə üzərində infrastrukturun dəqiq öyrənilməsinə geniş texniki-iqtisadi şərait yaradır.

Bununla yanaşı, elektrik şəbəkəsinin mövcud olmadığı ərazilər 3D - mobile mapping texnologiyası ilə scan olunan ərazi 0.5 sm dəqiqliklə öyrənilərək mərkəzi sistemdə 3D smart xəritəyə ötürülür, həmin ərazi üzrə elektrik ötürücü xətlərin çəkilməsi də, relyef xüsusiyyətlərini özündə əks etdirən 3D xəritədə virtual şəkildə, mütəxəssislərin öz iş yerlərini tərk etmədən dəqiq planlama aparmasına imkan verir və bir sıra üstünlükləri var.

3D - mobile mapping texnologiyasından istifadə bir çox texnoloji yeniliklərə də malikdir.

Biz birlikdə güclüyük!

# Laqeydlik və məsuliyyətsizlik yoluxmanı yenidən artıra bilər

*Əvvəli 1-ci səh.*

## Əhali COVID-19-a qarşı peyvənd olunur

Azərbaycanda da yanvarın 18-dən COVID-19-a qarşı vaksinasiya prosesinə səhiyyə işçilərinin peyvəndlənməsi ilə start verilib. İlk vaksinasiya prosesi Bakı Sağlamlıq Mərkəzində həyata keçirilib. Hazırda paytaxtla yanaşı, ölkəmizin digər bölgələrində də əhalinin COVID-19-a qarşı peyvənd olunması həyata keçirilir.

Nazirlər Kabinetinin 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"nda COVID-19 infeksiyası əleyhinə vaksinasiya ilə əhatə olunan əhali qrupları sosial və tibbi cəhətdən yüksək risk qrupu olaraq ayrılır. Sosial cəhətdən yüksək risk qrupuna səhiyyə işçiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular, təhsil sahəsində və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət", DOST mərkəzlərində, ictimai nəqliyyat sektorunda, telekommunikasiya operatorları və provayderləri, poçt sahəsində, bank sektorunda birbaşa əhali ilə təmasda olan işçilər aiddirlər.

Tibbi cəhətdən yüksək risk qrupuna yaşı 65-dən yuxarı olan, yəni yaşlı əhali, tənəffüs sisteminin xroniki xəstəlikləri, xroniki hemodializ xəstələri, II tip şəkərli diabetdən əziyyət çəkən 50 yaşdan yuxarı əhali, 18 yaşından yuxarı piylənmədən əziyyət çəkənlər aiddirlər.

Strategiyanın əsas məqsədi ölkədə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır. Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ölüm halının qarşısını almaq və nəticədə səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir.

Məlumat üçün qeyd edək ki, respublikamızda Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksini ilə peyvəndlənmə həyata keçirilir. Səhiyyə Nazirliyinin Səhiyyənin təşkili şöbəsinin müdiri Teymur Musayev söyləyib ki, ÜST tərəfindən təsdiqlənmiş "Sinovac" vaksini ənənəvi, etibarlı və sınanmış inaktiv platformada hazırlanır. Yüksək qoruyuculuq və uğurlu sınaq nəticələri var. Saxlanma şəraiti, çatdırılma və tətbiq şərtləri, "soyuq zəncir" sistemi tələbi əlverişlidir.

O, məlumat verib ki, "Sinovac" şirkətinin sifariş olunmuş dörd milyon doza vaksini öncə Türkiyəyə gətiriləcək. Orada laboratoriyalarda standartlara uyğunluğu yoxlanıldıqdan və qablaşdırıldıqdan sonra bir neçə partiya ilə Azərbaycana göndəriləcək. Vaksinin Türkiyədəki klinik sınaq nəticələrinə əsasən, onun virusla mübarizədə 91,25 faiz effektiv olduğu müəyyən edilib. Vaksin vurulan könüllülərin 2,5 faizində çox yüngül baş ağrısı, 2,5 faizində isə yorğunluq kimi yan təsirlər qeydə alınıb. Bu vaksin qoruyucu və təhlükəsizdir.

## Karantin rejimi yumşaldılır

Onu da vurğulayaq ki, dövlətimiz tərəfindən görülən effektiv tədbirlərin nəticəsində hazırda ölkəmizdə COVID-19 infeksiyasına yoluxmada müsbət dinamika müşahidə olunur. Bu isə sərt karantin rejimində bir sıra yumşaldılmalara rəvac verir. Artıq yanvarın 18-dən sərtləşdirilmiş xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin bir qismi yumşaldılıb.

Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, sözügedən tarixdən 5 şəhər və 12 rayonda yaşayış yerini və olduğu yeri SMS icazə, icaze.e-gov.az portalı və xidməti vəsiqə əsasında tərk etmək sistemi ləğv olunub.

Yanvarın 25-dən muzey və sərgi zallarının, ticarət obyektlərinin (ictimai iaşə obyektləri, kafe, çay evləri və bu kimi məkanlarda müştərilərə yerində xidmət və iri ticarət mərkəzlərinin, "Mall"ların fəaliyyəti istisna olmaqla), bərbərxanaların, gözəllik salonlarının fəaliyyətinə və kosmetik xidmətlərə, şəhərlərarası və rayonlararası hərəkətə icazə verilir.

## Fevralın 1-dən məktəblər açılır

Dünən Baş nazir Əli Əsədov "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər barədə" qərar imzalayıb. Qərara əsasən, xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2021-ci il 1 fevral tarixindən tədris və təlim-tərbiyə prosesinin əyani formada təşkili sanitar-epidemioloji vəziyyətlə bağlı Azərbaycan Respublikasının baş dövlət sanitariya həkiminin və ya Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyləri əsasında Təhsil Nazirliyinin qərarına əsasən, təhsil pillələri və səviyyələri üzrə mərhələli şəkildə təmin edilir.

Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair brifinqdə isə təhsil naziri Emin Əmrullayev bildirib ki, fevralın 1-dən Bakı, Sumqayıt, Abşeronda ibtidai təhsil, məktəbəhazırlıq, icma əsaslı qrupların fəaliyyəti mərhələli şəkildə bərpa ediləcək.

İri şəhərlərdə tədris həftədə 3 dəfə olmaqla, digər rayonlarda isə həftədə 4 və 5 dəfə olmaqla bərpa olunacaq. Fevralın 1-dən sonrakı iki həftə ərzində isə 5-9-cu siniflərdə tədrisə başlanılması barədə qərar qəbul olunacaq.

E.Əmrullayev söyləyib ki, əyani tədrisin həftədə 3 dəfə olması zərurətdən irəli gəlir: "ÜST-ün tələbi sosial məsafənin 1,5 metr olmasıdır. Siniflərin, məktəblərin, müəllimlərin sayı baxımından siniflər bölünürsə, həftədə 5 dəfə mümkün olmur. Məktəblərin çoxu 2 növbəlidir. Əsas məsələ sıxlığı idarə etməkdir. Bütün məktəblərdə sıxlıq əmsalları eyni deyil. 85600 sinifdən 49 minində, yəni 57 faizində şagird sayı 20 nəfərə yaxın, 20 minində 20-25 nəfər arasındadır. Təxminən 80 faiz şagirdimiz 25 və daha az şagirdlə sinifdə oturur. 311 sinifdə, yəni siniflərin 0,9 faizində sinifdə 40-dan çox şagird olur".

"Artıq vaksinasiya oluna biləcək müəllimlərin siyahısı hazırlanıb", - deyə məlumat verən nazir bildirib ki, Bakı, Sumqayıt və Abşeronda 15698, bölgələrdə isə 32600 müəllimin yaşı 50-dən yuxarıdır.

Brifinqdə bildirilib ki, yoluxma ehtimalına görə fiziki tərbiyə dərslərinin əyani formada keçirilməsi müvəqqəti dayandırılır.

Həmçinin məlumat verilib ki, sentyabr ayından bu günə qədər 14758 şagird koronavirusa yoluxub, təhsil işçiləri arasında isə yoluxanların sayı 7090 nəfər olub.

İbtidai siniflər arasında yoluxan şagirdlərin sayı 2246 nəfər təşkil edib, 5-9-cu sinif şagirdləri arasında 4411 şagird, 10-11-ci sinif şagirlər arasında isə 7525 nəfər şagird koronavirusa yoluxub.

## İctimai iaşə obyektlərində yerində xidmətlər bərpa olunacaq

Fevralın 1-dən həm ölkə ərazisində ictimai iaşə obyektlərində, həm də restoran, kafe və çay evləri və bu kimi digər məkanlarda müştərilərə saat 06:00-dan 00:00-dək yerində xidmətlər bərpa olunur. Fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində pandemiya dövrü ilə əlaqədar Nazirlər Kabinetinin müvafiq qərarları ilə müəyyən edilmiş məhdudiyyət və tələblərə ciddi riayət olunmalıdır.

Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət qüvvədə qalır. Bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyət, eləcə də digər qadağalar xüsusi karantin rejiminin sonunadək tətbiq olunacaq. Virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədi ilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 1 aprelədək uzadılıb. Xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskalardan istifadə məcburidir. Həmçinin sosial məsafə, tibbi maska və digər qoruyucu vasitələrdən istifadə etmək zəruridir.

Çünki, dünya təcrübəsindən də məlum olduğu kimi, yumşalmalar zamanı virus yenidən aktivləşir. Buna isə daha çox vətəndaşların arxayınlaşması və pandemiya şərtlərinə məsuliyyətlə əməl etməməsi səbəb olur. Elə buna görə də hazırda ən əsas şərt koronavirusa qarşı əldə olunan nailiyyətləri qoruyub saxlamaqdır. Bunun üçün əvvəldən bizə məlum olan pandemiya qaydalarına tam məsuliyyətlə əməl etməliyik: maska taxmalı, sosial məsafəni gözləməli, gigiyenaya, təmizlik işlərinə əməl etməliyik. Çünki azacıq laqeydlik və məsuliyyətsizlik təhlükəli virusu alovlandıra, yoluxmanı artıra və bizi yenidən məhdudiyyətlər çərçivəsində yaşamağa məhkum edə bilər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# Balakəndə iki gündə 174 tibb işçisi peyvənd olunub

**Balakən rayonunda əhalinin COVID-19 infeksiyasına qarşı peyvənd olunmasına başlanılıb.**

Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin direktoru Dilbər Quliyeva AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, ilkin mərhələdə rayona 440 doza vaksin gətirilib. Vaksinasiya kampaniyasının ilk iki günündə rayonda 174 tibb işçisinə peyvəndin birinci dozası vurulub və proses davam edir. Peyvənd olunmuş tibb işçiləri özlərini yaxşı hiss edirlər. Peyvəndin ikinci dozası 21 gündən sonra vurulacaq.





Qeyd edək ki, Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq, vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər və hüquq mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyət peyvəndlənəcək.

## “Bakı Metropoliteni” QSC
### Müxtəlif reklam işlərini yerinə yetirmək üçün mal və materialların satın alınması üzrə
### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **Müxtəlif reklam işlərini yerinə yetirmək üçün mal və materialların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN ödəniş” vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon:490-01-01.

**İştirak haqqı - 200 manat**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12 fevral 2021-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **22 fevral 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **23 fevral 2021-ci il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun 28 dekabr 2020-ci il tarixdə elan etdiyi Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi filialı üçün ofis sahəsinin icarəsi xidmətinin satın alınması üçün keçirilən açıq tenderin vaxtı uzadılmışdır. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq, tenderdə tələb olunan ilkin hüquqi sənədlərin müddəti 22 yanvar 2021-ci il saat 14:00-dan 27 yanvar 2021-ci il saat 14:00-a müəyyən edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az portalında 19.11.2020-ci il tarixdə elan edilmiş “502,371,421 indeksli EATS-lərin binalarında aparılacaq təmir işlərinin satın alınması” üzrə keçirilmiş açıq tenderin qalibi **“ZD” MMC** müəyyən edilmişdir.

Qalib təşkilatla 18.01.2021-ci il tarixli müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Ermənistan hakimiyyəti müxalifəti erkən seçkilərlə hədələyir

*Əvvəli 1-ci səh.*

Qeyd olunub ki, Nikol Paşinyan 2020-ci il noyabrın 10-da Azərbaycanla bəyanat imzalayandan sonra Yerevanda onun istefa tələbi ilə etiraz aksiyaları başladı. Müxalifət Paşinyanın yerinə ölkənin keçmiş rəhbəri Vazgen Manukyanın namizədliyini irəli sürdü. Dekabrın 25-də Paşinyan siyasi qüvvələri 2021-ci ildə növbədənkənar parlament seçkisinin keçirilməsini müzakirə etməyə dəvət etdi. “Biz praktiki addımlara keçməklə ilkin mərhələdə növbədənkənar seçkinin keçirilməsi barədə memorandum imzalanmasını müzakirə edə bilərik”, - deyən Avinyan parlamentdəki hökumət saytında “İşıqlı Ermənistan” müxalifət fraksiyasının deputatı Armen Yegizaryana belə cavab verib. O, bu məsələ həllini tapsın deyə digər müxalifət partiyası olan “Çiçəklənən Ermənistan”ı da memoranduma qoşulmağa çağırıb.

Nikol Paşinyan isə müxalifətin onun 2021-ci ildə seçki keçirilməsi təklifini rədd etməsinə təəccüblənib. “Hakim qüvvənin özündən ötrü növbədənkənar parlament seçkiləri keçirməsi məntiqli deyil”, - deyə baş nazir qeyd edib. Əlavə edib ki, bu məsələ hələ də gündəmdədir və müzakirələr davam edir.

### Ermənistan yalnız bu müharibədə uduzmayıb, son 25 ildə uduzub

Bu arada Ermənistanda növbəti ictimai sorğu keçirilib. Sorğuya daxil edilən suallardan biri də hökumətin əsirlərlə bağlı aparmalı olduğu işlə əlaqəli olub. Yerevandan olan respondentlərin təqribən 49 faizi Paşinyanın əsirlərin qaytarılması ilə bağlı işindən narazıdır.

GALLUP Beynəlxalq Assosiasiyasının Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardiyanın verdiyi məlumata görə, sorğu iştirakçılarının 34,8 faizi əsirlərin geri qaytarılması məsələsində baş nazirin fəaliyyətini “tamamilə mənfi”, 14,3 faiz isə “olduqca mənfi” qiymətləndirib. Respondentlərin təxminən 18,9 faizi “tamamilə müsbət”, 19 faizi “kifayət qədər müsbət” qiymət verib.

Yerevan sakinlərindən həmçinin 11 yanvar 2021-ci il tarixində Ermənistan, Rusiya və Azərbaycan arasında imzalanmış üçtərəfli Bəyanata münasibətləri soruşulub. Respondentlərin 14,6 faizi imzanı “tamamilə müsbət”, respondentlərin 21,9 faizi “kifayət qədər müsbət”, 13 faizi “kifayət qədər mənfi”, 24,4 faizi “tamamilə mənfi” qiymətləndirib. Cavab verməyə çətinlik çəkənlər isə respondentlərin 26,1 faizini təşkil edib.

Ermənistanda sabiq prezident Robert Koçaryanın işi üzrə növbəti məhkəmə iclası keçirilib. İclas azsaylı Koçaryan tərəfdarlarının etiraz aksiyası ilə müşayiət olunub. Ermənistan Xalq Partiyasının sədr müavini Qriqor Arutyunyan həmin aksiyada səslənən “əgər hakimiyyətdə Koçaryan, yaxud Sarkisyan olsaydı, ölkə Qarabağda müharibəni uduzmazdı” məzmunlu fikirlərə münasibət bildirib. Deyib ki, əslində, Ermənistan bu müharibədə uduzmayıb, son 25 ildə uduzub. “Əgər hakimiyyətdə Robert Koçaryan, Serj Sarkisyan və ya Vazgen Manukyan olsaydı, Ermənistan uduzmazdı?” - deyə o, sual verib.

Arutyunyan sabiq prezidentin oğlu Levon Koçaryana da sual verir: “Sənin atan şir ovlamağa gedəndə hansı pullarla gedirdi? Nəyə görə biz bu gün uduzmuşuq? Nəyə görə Koçaryanın oğlu atasına demir ki, şir ovuna getmək əvəzinə ordu üçün bir-iki PUA alardı?”

Ermənistanın keçmiş müdafiə naziri, İkinci Qarabağ müharibəsində də iştirak edən Seyran Ohanyan payızda Ermənistan rəhbərliyinin cəbhədəki vəziyyətdən danışaraq erməni xalqını səhv istiqamətə yönləndirdiyinə və bu gün Nikol Paşinyan və komandasının, sadəcə, susduqlarına diqqət çəkib. Deyib ki, Paşinyan niyə erməni əsirlərinin geri qaytarılması məsələsini həll edə bilmədi: “Bilirsiniz, səlahiyyətlilər bu sualın cavabını verməlidir. Müharibəboyu “Biz qalib gələcəyik!” şüarı altında yürüdülən siyasət nəticəsində məğlubiyyətə düçar olduq, amma indi hakimiyyət “Biz susuruq!” şüarı altında hərəkət edir. Onlar insanların bu suallarına cavab verməlidirlər”.

Ohanyan etiraf edib ki, Şuşa həm sayca, həm də texniki imkanlarına görə Azərbaycan Ordusunun üstünlüyü üzündən əldən gedib. Onun sözlərinə görə, noyabrın 5-də ermənilər üç tərəfdən blokadaya alınıb və noyabrın 6-da Şuşanı tərk ediblər.

Qeyd edək ki, S.Ohanyan hərbi əməliyyatlar zamanı Şuşada işğalçı ordunun bölmələrinə rəhbərlik edənlərdən biri idi. Bir vaxtlar Ermənistan ordusunun qüdrətindən dəm vuran müharibə canisi Azərbaycan Ordusunun rəşadətli hücumu zamanı geriyə də baxmadan qaçmışdı.

### Paşinyanla Sarkisyanın gizli sövdələşməsi

Ermənistanın “İşıqlı Ermənistan” partiyası 44 günlük müharibəni və hərbi əməliyyatlaradək olan dövr ərzindəki vəziyyəti araşdırmağı təklif edib. “Qrapa-rak” qəzeti yazır ki, deputat Edmo Marukyanın başçılıq etdiyi partiyanın təklifini Qaqik Sarukyanın “Çiçəklənən Ermənistan” partiyası, “Daşnaksütyun” və Aram Sarkisyanın “Respublika” partiyası dəstəkləyib. Nikol Paşinyanın “Mənim addımım” və keçmiş prezident Serj Sarkisyanın başçılıq etdiyi “Respublikaçılar” partiyası bu təklifdən imtina edib.

Bildirilir ki, təklifə əsasən, araşdırma komissiyasının tərkibinin 16 nəfərdən ibarət olması, parlamentdəki fraksiyaların hər birindən 4 namizəd, parlamentdənkənar 3 partiyanın hərəsindən bir namizəd irəli sürülməsi təklif edilir. Qəzet yazır ki, mütəxəssislər Paşinyan və Sarkisyanın partiyalarının təklifi dəstəkləməməsini təsadüfi saymırlar. İndiyədək parlamentdə 2016-cı ilin aprel döyüşlərini araşdıran komissiya fəaliyyət göstərir. Ehtimal olunur ki, bundan sonra həmin komissiya öz işini dayandıracaq. Müxalifətin təklifindən imtina edilməsi də bununla bağlı ola bilər. Başqa sözlə, Nikol Paşinyanın aprel döyüşlərini araşdırmağı dayandırmasının qarşılığında Sarkisyan da 44 günlük döyüşlərin müzakirə olunmamasını dəstəkləyəcəyini bildirib.

Bütövlükdə, mövcud vəziyyət Ermənistanın üzləşdiyi siyasi böhranın daha da dərinləşəcəyindən xəbər verir. Belə bir şəraitdə ölkədə iqtisadi və sosial vəziyyətin daha da kəskinləşəcəyi proqnozlaşdırılır.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***



## OXUCULARIN NƏZƏRİNƏ!
## “AZƏRBAYCAN”

*qəzetinə 2021-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## Sumqayıt Şəhər İcra Hakimiyyəti
### idarəçiliyinə aid şəhər ərazisində yerləşən körpələr evi və uşaq bağçalarının 2021-ci ilin müvafiq istilik mövsümündə istilik təchizatı üzrə iş və xidmətlərinin satın alınması məqsədilə
### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsi ilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı 390 manatdır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**VÖEN: 2900054881**
**Büdcə səviyyəsinin kodu 7y**
**İqtisadi təsnifat 142330**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir;*
- *tender təklifinin təminatı tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində müəyyənləşdirilir;*
- *tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır .

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **24 fevral 2021-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **04 mart 2021-ci il saat 17:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **05 mart 2021-ci il saat 15:00-da** Portalda açılacaqdır.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti
### BGTZ-nin üzən tərsanələrinin və gəmi tikinti sahəsinin 6 kv-luq kabel xəttinin yenidən qurulması işlərinin satın alınması
### *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 01 fevral 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəhbərliyi və kollektivi ölkəmizin Belçika Krallığında və Lüksemburq Böyük Hersoqluğundakı fövqəladə və səlahiyyətli səfiri, Avropa İttifaqı yanında Nümayəndəliyinin rəhbəri Fuad İsgəndərova atası

**ELDAR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıtdan Zakir Fərəcov UNEC-in Strateji inkişaf üzrə prorektoru, iqtisad elmləri doktoru, professor

**MİRDAMƏD MİRSADIQ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev Azərbaycan Dövlət İqtisad Universitetinin Strateji inkişaf üzrə prorektoru, professor

**MİRDAMƏD MİRSADIQ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5083
Sifariş 138
Qiyməti 40 qəpik